**F.Ə.Məmmədov, A.F.Musayev, A.Q.Qəhrəmanov**

# VERGİLƏR

VI–VIII siniflər üçün dərs vəsaiti
Əlavələr edilmiş üçüncü nəşr

BAKI - 2012

**Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən dərs vəsaiti kimi təsdiq edilmişdir.**

***Məsləhətçi:***
**M.C.MƏRDANOV**
*Azərbaycan Respublikasının təhsil naziri*

***Rəyçilər:***
**A.K.ƏLƏSGƏROV**
*Azərbaycan MEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor*

**T.S.VƏLİYEV**
*Azərbaycan MEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor*

***Azərbaycan MEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor A.F.Musayevin elmi redaktəsi ilə***

**F.Ə.Məmmədov, A.F.Musayev, A.Q.Qəhrəmanov. Vergilər**. CBS PP, Bakı, 2012, 152 səh.

Kitab respublikanın orta məktəblərinin VI-VIII sinifləri üçün dərs vəsaitidir. On bir fəsil və əlavələrdən ibarət olan dərs vəsaiti məktəblilərin tətbiq olunan vergilər, onların hesablanma və ödənilmə qaydaları haqqında ilkin biliklər almaları üçün nəzərdə tutulub.

Azərbaycan Respublikası
**TƏHSİL NAZİRLİYİ**

Azerbaijan Republic
**MINISTRY of EDUCATION**

№ 48-22-957/16 "07" 03 2001 il.

*Azərbaycan Respublikası*
*Vergilər naziri*
*cənab F.Məmmədova*

**Hörmətli Fazil müəllim !**

***Bildiririk ki, Azərbaycan Respublikası Vergilər Nazirliyindən göndərilmiş ümumtəhsil məktəbləri üçün hazırlanmış «Vergilər» adlı vəsait Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının «İqtisadiyyat» bölməsinin 27 fevral 2001-ci il tarixli 10 saylı protokolu ilə nəşrə müvafiq bilinmişdir.***

***MİSİR MƏRDANOV***

# ÖN SÖZ

Əziz uşaqlar!

Son illərə qədər respublikamızın məktəblərində vergi barədə, demək olar ki, heç bir məlumat verilmirdi. Şagirdlər şifahi xalq ədəbiyyatı nümunələrində və yazıçılarımızın əsərlərində bac, xərac, zəkat, töycü, fitrə və bu kimi sözlərə rast gəlsələr də, çoxu bunların mənasını başa düşmürdü, yaşlılardan soruşduqda isə cavab alırdılar ki, guya bütün bunlar bir qrup şəxsin varlanması və başqalarının hesabına yaşaması üçündür. Əslində isə vergilər, o cümlədən də bac, xərac, zəkat, xüms və s. dövlətin mövcudluğunu təmin etmək üçün zəruri ödəmələrdir. Ümumiyyətlə isə, hər bir vətəndaşın gəlirlərinin qanunla müəyyən edilmiş hissəsi büdcəyə daxil olmasa, dövlət xəzinəsi boşalar, dövlət öhdəsinə düşən vəzifələri yerinə yetirə bilməz və zəifləyər.

Vergi fəaliyyəti ilə bağlı bütün ölkələrdə kifayət qədər təcrübə toplansa da, ədalətli vergi sistemi yaratmaq indiyədək mümkün olmamışdır. Hər bir ölkə özü üçün əlverişli vergi sistemi yaratmağa çalışır.

Respublikamızda da müstəqillik qazanıldıqdan sonra bazar iqtisadiyyatına keçid ilə əlaqədar olaraq, bu sahədə mühüm işlər görülmüşdür.

Bu kitabda vergilər barədə ən vacib məlumatlar verilir. Siz də müstəqil Azərbaycan Respublikasının vətəndaşları

kimi həmişə vergi problemləri ilə qarşılaşacaqsınız. Ona görə də vergilərin tutulması qaydalarını indidən bilməli, ödənilməsinin əhəmiyyətini başa düşməlisiniz. Yadınızdan çıxarmayın ki, gəlirlərin dövlətə verilmiş hissələri qüdrətli ordunun yaranmasına, səhiyyə xidmətinin yaxşılaşdırılmasına, təhsilə, ekologiyanın qorunmasına və bu kimi vacib işlərə sərf olunur.

Vergi qaydalarının pozulması çox təhlükəlidir, çünki hər bir dövlət qəsdən və ya qanunları bilmədiyinə görə onun gəlirlərini azaldan şəxsləri ciddi cəzalandırır. Bunu hər bir şəxs həmişə yadda saxlamalıdır.

Lakin vergilərdə güzəştlər də mövcuddur. Dövlət bu və ya digər fəaliyyət sahələrini inkişaf etdirmək üçün vətəndaşları həvəsləndirir. Vergi qanunvericiliyini yaxşı bilən adam, digərlərindən fərqli olaraq, qanunla nəzərdə tutulduğu kimi daha az vergi vermək imkanından istifadə etməyi bacarır.

Ümidvarıq ki, vergilər aləmi ilə sizin tanışlığınız həm faydalı, həm də maraqlı olacaq.

•

**Qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur.**

**Heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunla göstərilmiş həcmdən əlavə vergilər və başqa dövlət ödənişləri ödəməyə məcbur edilə bilməz.**

***Azərbaycan Respublikasının Konstitusiyası, maddə 73.***

# 1.VERGİLƏR, ONLARIN ƏLAMƏTLƏRİ VƏ PRİNSİPLƏRİ

## 1.1. Vergi, büdcə və maliyyə

Dövlətin və onun idarəetmə orqanlarının yaranması əhalidən vergilərin yığılmasını zəruri etmişdir. Hətta ordusuz və ya milli valyutasız dövləti təsəvvür etmək olar, lakin vergilərsiz dövlət ola bilməz. Bütün dövlətlərin əsas gəlir mənbəyi əhalidən yığılan vergilərdir.



***Milli valyuta*** *– hər bir ölkənin özünə məxsus olan və digər ölkələrlə iqtisadi mübadilədə istifadə etdiyi pul vahidinə deyilir.*

Yer kürəsində iki yüzə yaxın dövlət var. Antarktida qitəsindən və okeanların beynəlxalq hissəsindən başqa bütün ərazilər ayrı-ayrı dövlətlərin ixtiyarındadır. Böyük döv-

lətlər (Amerika Birləşmiş Ştatları, Rusiya, Çin və s.) olduğu kimi, cırtdan dövlətlər (Monako, Andorra, Lixtenşteyn və s.) də var. Bütün bu dövlətlərin mövcudluğunun əsası vergilərdir. Hətta cırtdan dövlətlərdə də əhali vergi ödəməlidir. Məsələn, Andorra əslində əlverişli iqtisadi zona hesab edilir və burada fəaliyyət göstərən təsərrüfat subyektləri hər cür vergidən azaddır. Lakin onun hər bir vətəndaşı iki ildə bir dəfə yepiskopa 460 peset pul, 12 ədəd qaxac edilmiş donuz budu, 12 cücə və 12 baş pendir, Fransa prezidentinə isə 960 frank pul verir.

Doğma vətənimiz Azərbaycan da dünya dövlətlərindən biridir və onun da vergi sistemi, vergi qanunvericiliyi var. Hər il respublikamızın Ali qanunvericilik orqanında – Milli Məclisdə gələn ilin dövlət büdcəsi təsdiq edilir və bu büdcədə gəlirlər, xərclər göstərilir.

Bəs vergi nədir? Onun əsas əlamətləri hansılardır?

Vergiyə müxtəlif cür tərif vermək olar. Ən sadə təriflərdən biri aşağıdakı kimidir:

> ***Vergi*** *– dövlətin maliyyə təminatı üçün əhalidən pul vəsaitlərinin məcburi şəkildə büdcəyə və məqsədli dövlət fondlarına köçürülən hissəsidir.*

Bu tərifdə büdcə və maliyyə anlayışlarından istifadə edilmişdir.

***Büdcə*** *– müəyyən dövr üçün gəlirlərin və xərclərin siyahısıdır. Əgər xərclər gəlirlərdən çoxdursa, onda büdcə çatışmazlığı (büdcə kəsiri) yaranır.*

***Maliyyə*** *– pul vəsaitləri fondlarının yaradılması və istifadəsi prosesində iqtisadi münasibətlərin məcmusudur.*

Buradan aydın olur ki, maliyyə təminatı əslində pul ilə təmin etmək deməkdir.

Vergilərlə əlaqədar olaraq, fiziki və hüquqi şəxs anlayışları verilir.



Fiziki şəxs



Hüquqi şəxs

***Fiziki şəxs*** *dedikdə ayrıca şəxs başa düşülür,* ***hüquqi şəxs*** *isə müəssisə və təşkilatlar hesab edilir.*

Vergilər fiziki və hüquqi şəxslərdən alınır.

## 1.2.Vergilərin əsas əlamətləri

Vergilərin əsas əlamətləri aşağıdakılardır:

1. Ayrı-ayrı fiziki və hüquqi şəxslərin və müəssisələrin gəlirlərinin bir hissəsi dövlətin xeyrinə alınır, yəni sahibkarın gəlirinin müəyyən hissəsi dövlətin mülkiyyətinə keçir.
2. Vergilər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada təyin edilir, hesablanır və tutulur.
3. Vergilərin ödənilməsi məcburidir və vergiləri ödəməyən qanuna uyğun olaraq cəzalandırılır.
4. Vergilər təmənnasız ödənilir, yəni vergi ödəyicisi ödədiyi məbləğ əvəzində heç nə almır.

Vergilərin yığılması qaydaları min illər ərzində aktual olsa da, hələ tam həll edilməmişdir. Buna baxmayaraq, ölkələrin əksəriyyətində yığım üsulları oxşardır.

Vergilər tutulma üsuluna görə iki qrupa bölünür: birbaşa vergilər və dolayı vergilər.

> ***Birbaşa vergilər** dedikdə hüquqi və fiziki şəxslərin gəlirindən və ya əmlakından bilavasitə tutulan vergilər başa düşülür.*

Bu cür vergilərin dəqiq məbləği məlum olur. Birbaşa vergilərə fiziki şəxslərdən tutulan gəlir vergisi, torpaq vergisi, əmlak vergisi və s. daxildir.

***Dolayı vergilər*** *əmtəənin və ya xidmətin qiymətindən tutulan vergilərdir. Onlar qismən və ya tamamilə əmtəənin dəyərinə köçürülür.*

***Əmtəə*** *– mübadilə üçün istehsal edilən əmək məhsullarıdır.*

***Qiymət*** *– əmtəənin dəyərinin pul ifadəsidir, və ya mübadilə edilən əmtəə vahidi üçün tələb olunan pulun miqdarıdır.*

Dolayı vergilərə misal olaraq, əlavə dəyər vergisini, aksizləri və s. göstərmək olar.

## 1.3. Vergitutmanın prinsipləri

Vergitutmada müxtəlif prinsiplərdən istifadə edilir. Bunlardan ən mühümləri ədalətlilik, müəyyənlik, əlverişlilik və qənaətlilik prinsipləridir.

Ədalətlilik prinsipi o deməkdir ki, ölkənin hər bir vətəndaşı dövlət xərclərinin maliyyələşdirilməsində öz gəlir-

lərinə və imkanlarına uyğun olaraq iştirak etməlidir. Ədalətli vergi sistemi barədə mübahisələr iki nəzəriyyənin yaranmasına səbəb olmuşdur. Bunlardan birincisi «üfüqi vergi ədalətliliyi», digəri isə «şaquli vergi ədalətliliyi» adlanır.

Birinci nəzəriyyənin tərəfdarları hesab edirlər ki, bütün vətəndaşlar dövlətin ehtiyaclarını ödəmək üçün gəlirlərinin eyni hissəsini verməlidirlər. Məsələn, bu hissə gəlirin yarısıdırsa, onda 10 min manat qazanan 5 min manatını, 50 min manat qazanan 25 min manatını, bir milyon manat qazanan 500 min manatını vergi kimi ödəməlidir.



İkinci nəzəriyyənin tərəfdarları isə «çox qazananlar çox verməlidirlər» prinsipini əsas götürürlər. Onların qənaətinə görə kasıb onsuz da çətinliklə dolanır və ondan varlılardan alınan qaydada vergi tutmaq insafsızlıqdır. Bu

nəzəriyyəyə görə gəlir artdıqca onun vergiyə cəlb olunan hissəsi də artmalıdır. Məsələn, 10 min manat qazanan 3 min manat (yəni gəlirinin 30 faizini) vergi verirsə, bundan çox qazananlar daha yüksək dərəcə ilə vergi ödəməlidirlər. 50 min manat qazanan 15 min manat əvəzinə daha çox, tutaq ki, 20 min manat (gəlirinin 40 faizini), bir milyon manat qazanan isə daha çox, tutaq ki, 550 min manat (gəlirinin 55 faizini) vergi verməlidir.

Bu nəzəriyyələrdən hansının doğru olduğunu söyləmək çətindir. İqtisadiyyatda çox şey siyasətdən asılıdır və ona görə hər iki üsuldan istifadə olunur.

Vergitutmanın müəyyənlik prinsipinə görə verginin məbləği və ödənilmə vaxtı ödəyiciyə məlum olmalıdır.

Əlverişlilik prinsipi o deməkdir ki, vergilər ödəyici üçün əlverişli vaxtda və əlverişli qaydada tutulmalıdır.

Qənaətlilik prinsipi isə tələb edir ki, vergi tutulması ilə bağlı xərclər mümkün qədər az olmalıdır.

## 1.4. Vergi sistemləri

Vergilərin əsrlərlə davam edən tarixi vergi sistemlərinin üç variantına gətirib çıxarmışdır. Bunlar mütərəqqi, mütənasib və reqressiv adlanan variantlardır.

Mütərəqqi vergi sistemi şaquli vergi ədalətliliyi prinsipinə əsaslanır. Bu sistemə görə, dövlətə verilən hissə vergi tutulan gəlirin, yaxud əmlakın qiymətinin artması ilə

getdikcə artır. Respublikamızda gəlir vergisinin təyin edilməsi üçün bu sistemdən istifadə edilir.

Mütənasib vergi sistemi isə üfüqi vergi ədalətliliyi ideyasına uyğundur. Bu sistemə görə gəlirin, mənfəətin, əmlakın dəyərinin və s. məbləğindən asılı olmayaraq, eyni hissə vergi kimi alınır. Respublikamızda bu sistem müəssisələrin mənfəətindən vergi tutulmasında istifadə olunur. Mənfəətin məbləğindən asılı olmayaraq, ondan 20% dərəcə ilə vergi tutulur.

Bəzi ölkələrdə reqressiv vergi sistemindən də istifadə edilir. Bu sistem gəlir artdıqca vergi faizinin azalmasını nəzərdə tutur. Məsələn, Amerika Birləşmiş Ştatlarında gəlir vergisinin dərəcəsi əvvəlcə gəlirin artması ilə artır, 13%, 28%, 33% olur, sonra isə ən yüksək gəlirlər üçün 28%-ə düşür. Bu ona görə edilir ki, ən varlı adamların vergidən yayınma imkanları daha böyükdür və reqressiv sistem üzrə vergi tutulması onlar üçün daha əlverişlidir. Bu halda onlar vergidən yayınmırlar və büdcəyə daha çox vəsait daxil olur.

Hər bir vergi sisteminin yaxşı və pis cəhətləri var. Ona görə də eyni ölkədə müxtəlif vergi növləri tətbiq oluna bilər.

İnkişaf etmiş ölkələrin vergi sistemləri bir-birindən fərqli iqtisadi, siyasi və sosial amillərin təsiri nəticəsində təşəkkül tapdığından, bu sistemlər vergilərin sayına, strukturuna, yığılma üsullarına, dərəcələrinə və s. görə fərqlənir.

Lakin bütün bu vergi sistemlərinin hamısına xas olan ümumi cəhətlər də var ki, bunlar dövlətin vergi gəlirlərinin artırılması yollarının axtarılması və vergitutmanın əsas prinsiplərinin tələbinə cavab verən sistemin yaradılmasına cəhd edilməsidir.

İnkişaf etmiş ölkələrdə dövlət büdcəsinin gəlir hissəsinin formalaşmasında ayrı-ayrı vergilərin xüsusi çəkisi müxtəlifdir. Məsələn, ABŞ-ın federal büdcəsində bu bölgü təqribən aşağıdakı kimidir:

| | |
|---|---|
| *Şəxsi gəlirlərdən vergi* | *45 %,* |
| *Mənfəətdən vergi* | *10 %,* |
| *Sosial vergilər* | *36 %,* |
| *Aksizlər* | *4 %,* |
| *Gömrük rüsumları* | *2 %,* |
| *Vərəsəlik və bağışlanmadan vergilər* | *1 %,* |
| *Digər vergilər* | *2 %* |
| **Cəmi:** | **100 %** |

Avropa ölkələrində bu bölgü tamamilə başqa cürdür. Məsələn, Fransada əlavə dəyər vergisi büdcəyə daxil olan vergilərin ümumi məbləğinin təqribən 45 faizini, gəlir vergisi isə 20 faizini təşkil edir.

İnkişaf etmiş ölkələrin vergi sistemlərində mərkəzi və digər səviyyəli büdcələrin gəlirləri arasında dəqiq sərhəd

müəyyən edilmişdir. İngiltərə, Fransa, İtaliya kimi unitar dövlətlərdə büdcənin iki səviyyəsi mövcuddur: mərkəzi və yerli. ABŞ, Kanada, Almaniya kimi federativ dövlətlərdə isə büdcə üç səviyyəlidir: federal, ərazi və yerli.

Vergi sistemlərində vergidən əlavə yığım və rüsum anlayışlarından da istifadə olunur. Bunların arasında ümumi cəhətlər olduğu kimi fərqli cəhətlər də mövcuddur. Ümumi cəhətlər hansılardır?

Vergilər, yığımlar və rüsumlar:

- məcburidir, yəni onları vergi ödəyiciləri qanunla nəzərdə tutulduğu qaydada ödəməlidirlər;
- ayrıca götürülmüş vergi ödəyənə heç bir üstünlük verilmir, yəni bütün vergi ödəyənlər bərabərdir və onlara fərq qoyulmur;
- pul şəklində ödənilir.

Bu ödənişlərin fərqli cəhətlərini göstərək.

Vergi konkret istifadə istiqaməti olmayan məcburi ödəmədir. Bu o deməkdir ki, məsələn, hər hansı şəxs gəlir vergisi verirsə, ödədiyi pulun nəyə xərcləndiyini bilmir. Yığım isə hər hansı fəaliyyəti həyata keçirmək, nədənsə istifadə etmək üçün dövlət orqanları tərəfindən tutulan vəsaitlərdir.

Məsələn, istirahət evinə gələn şəxs müəyyən qədər pul ödəyir və oradakı şəraitdən istifadə hüququ qazanır. Yerli hərraclar keçirmək, lotereya oyunları təşkil etmək üçün verilən vəsait də yığım növünə aiddir.

Rüsum hüquqi və fiziki şəxslərdən müəyyən səlahiyyətli dövlət orqanlarının fəaliyyəti və hüquqi əhəmiyyəti olan sənədlərin tərtibi üçün alınır. Xarici ölkəyə sərhəddən mal keçirdikdə gömrük orqanları rüsum alırlar.



Müəyyən məsələ üçün məhkəməyə və ya notariusa müraciət etdikdə də rusum ödəmək lazımdır.

## YOXLAMA TAPŞIRIQLARI

*1. Aşağıdakı suallara cavab verin:*

- *Milli valyuta nədir?*
- *Vergilərin əsas əlamətləri hansılardır?*
- *Birbaşa və dolayı vergilər nə ilə fərqlənir? Andorranın əhalisinin ödədiyi vergi bunların hansına aiddir?*

*- Vergitutulmada hansı prinsiplərdən istifadə edilir?*

*- Büdcələrin müxtəlif səviyyəli olması nə ilə əlaqədardır?*

*- Yığım və rüsumun vergidən fərqli cəhətləri hansılardır?*

*2.Üfüqi vergi ədalətliliyi ilə şaquli vergi ədalətliliyini müqayisə edin.*

*3 .Mütərəqqi, mütənasib və reqressiv vergi sistemlərinin fərqli xüsusiyyətlərini göstərin.*

*4. Fərz edək ki, vergi dərəcələri gəlirin artmasına uyğun olaraq, əvvəlcə 15 faiz, sonra 25 faiz olur, daha sonra isə ən yuxarı həddə çatıb 35 faiz olur. Bu cür vergi qoyuluşu hansı vergi sisteminə və vergi ədalətliliyi prinsipinin hansı növünə aiddir?*

•

# 2. DÖVLƏT BÜDCƏSİ: GƏLİRLƏR VƏ XƏRCLƏR

## 2.1. İqtisadi azadlıq və onun qorunma mexanizmi

Şərq xalqlarının ibrətamiz rəvayətləri toplanmış Kəlilə və Dimnə kitabında deyilir:

İnsanın var-dövləti olsa, lakin bu var-dövlət haqqında qayğı göstərməsə, onu qənaətlə xərcləməsə, çox keçmədən bu var-dövlət qurtarar və ona heç nə qalmaz. Odur ki, deyiblər, xərcləmək qazanmaqdan çətindir. Əgər insan qazanc gətirmədən pulu xərcləməyə başlasa, nə qədər az xərcləsə də, yenə gec-tez pul qurtarar. Odur ki, deyiblər: *Dama-dama göl olar, dada-dada heç*. İnsan var-dövlət yığıb saxlasa, onu xeyirli və faydalı işlərə xərcləməsə, dövlətli deyil, yoxsul hesab edilməlidir.



Belə adamın dövləti müxtəlif yollarla lazım olmayan yerlərə xərclənib gedər. Bu, su gələn yolu olub, çıxan yeri olmayan bir hovuza bənzər; suyun artığı faydalı yerlərə sərf edilmədiyi üçün daşıb ətrafı basar, hədərə gedər.

Bu deyilənlər insanın gəlirləri və xərcləri barədə olsa da, əslində dövlətə və onun büdcəsinə də aiddir. Dövlət yığdığı vəsaitdən səmərəli istifadə etməlidir ki, əhali getdikcə daha firavan və rahat yaşaya bilsin.

Bunun üçün nə etmək lazımdır?

Dünya alimləri və siyasətçiləri əsrlərdən bəri bu sualın cavabını axtarırlar və hələ də bir nəticəyə gəlməyiblər. Yalnız bəzi mühüm prinsiplər məlumdur.

İlk növbədə ölkədə elə şərait yaradılmalıdır ki, hər bir şəxs işgüzar fəaliyyət göstərə bilsin. Bunun üçün isə iqtisadi azadlıq lazımdır, yəni hər bir kəs bacardığı işlə məşğul olmaq, istənilən adamla sövdələşmək və mülkiyyətindən, yaxud əməyinin nəticəsindən sərbəst istifadə etmək ixtiyarına malik olmalıdır. Lakin iqtisadi azadlığın qorunma mexanizmi də zəruridir və bunu dövlət təşkil etməlidir. Belə mexanizm hazırda aşağıdakılardan ibarətdir:

- mülki qanunvericilik,
- məhkəmələr,
- iqtisad məhkəmələri,
- qaydaların qorunmasına nəzarət edən dövlət orqanları,
- vergi sistemi.

Mülki qanunvericilikdə xüsusi mülkiyyət hüququ tanınır. Dövlət öz nəzarətində olan polis, məhkəmə və prokurorluq orqanları vasitəsilə mülkiyyət hüququnu qoruyur.

Hər hansı bir şəxs təsərrüfat fəaliyyətində qanunları pozursa, zərər çəkən tərəf məhkəməyə müraciət edə bilər. Bu zaman günahkar qeyri-qanuni alınmış əmlakdan və ya qazancdan məhrum edilir.

Təsərrüfat fəaliyyəti nəticəsində müəssisələr arasında mübahisə yarandıqda, belə məsələlərə iqtisad məhkəmələrində baxılır. İqtisad məhkəmələrinin çıxardığı qərarlar da digər məhkəmələrin qərarları kimi mütləq yerinə yetirilməlidir.

Dövlət büdcəsi gəlirlərdən və xərclərdən ibarət olur.

## 2.2. Büdcə gəlirləri

Ölkədə qəbul edilmiş iqtisadi sistem büdcəyə daxil olan gəlirləri müəyyən edir. Sovet hakimiyyəti dövründə iqtisadiyyatın dövlət bölməsinin və işləyən vətəndaşların gəlirlərinin çox böyük hissəsi büdcəyə daxil olurdu. Bundan əlavə süni olaraq qiymətləri aşağı salınmış malları tapmaq da çətin idi. Əhali qalan pul artığını yalnız dövlət bankına, daha doğrusu, onun əmanət kassalarına qoymalı olurdu. Beləliklə, Sovet dövləti bütün maliyyə vasitələrinin şəriksiz sahibi idi və ondan necə istəyirdi, elə də istifadə edirdi.

Bazar iqtisadiyyatına əsaslanan ölkələrdə isə dövlətin pul ehtiyatlarının mühüm hissəsi vergilərdən təşkil olunur.

**Azərbaycan Respublikasının 2012-ci il üçün büdcə gəlirlərində bəzi vergilərin məbləği aşağıdakı kimidir:**

| | |
|---|---|
| Gəlir vergisi | 722000 min manat |
| Mənfəət vergisi | 1780000 min manat |
| Əlavə dəyər vergisi | 2302800 min manat |
| Aksizlər | 533600 min manat |
| Yol vergisi | 50000 min manat |
| Mədən vergisi | 125200 min manat |
| Sadələşdirilmiş vergi | 96000 min manat |

## 2.3.Büdcə xərcləri

Dövlət öz fəaliyyətini gəlirlərə görə qurur. Büdcəyə toplanmış gəlirlər əvvəlcədən nəzərdə tutulmuş qaydada xərclənir.

## Respublikamızın 2012-ci il üçün dövlət büdcəsində aşağıdakı xərclər nəzərdə tutulmuşdur:

| | |
|---|---|
| *Ümumi dövlət xidmətləri* | *1202486834,0 manat* |
| *Müdafiə* | *1381425503,0 manat* |
| *Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq* | *945140182,0 manat* |
| *Təhsil* | *1582937213,0 manat* |
| *Səhiyyə* | *658709337,0 manat* |
| *Sosial müdafiə və sosial təminat* | *1785788168,0 manat* |
| *Mədəniyyət, incəsənət,informasiya, bədən tərbiyəsi, turizm və s.* | *254777758,0 manat* |
| *Mənzil və kommunal təsərrüfatı* | *344433872,0 manat* |
| *Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq,ovçuluq və ətraf mühütün mühafizəsi* | *472735785,0 manat* |
| *Sənaye, tikinti və faydalı qazıntılar* | *5794110679,0 manat* |
| *Nəqliyyat və rabitə* | *87910935,0 manat* |
| *İqtisadi fəaliyyət* | *185866150,0 manat* |
| *Əsas bölmələlərə aid edilməyən xidmətlər* | *2375677584,0 manat* |

Ümumiyyətlə, Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsinin gəlirləri 16438000,0 min manat, xərcləri 17072000,0 min manat məbləğində təsdiq edilmişdir. Göründüyü kimi, büdcə kəsiri 634000,0 min manat təşkil edir.

Yuxarıda göstərildiyi kimi, hələlik respublikamızda büdcənin xərcləri gəlirlərindən çoxdur. 1999-cu ildə bu fərq 148275,18 min manat, 2000-ci ildə 95806,9 min manat, 2001-ci ildə 84000,0 min manat, 2004-cü ildə 63000 min manat idi. 2012-ci ildə isə fərq 634000 min manat nəzərdə tutulmuşdur. Bu əvvəlki illərə nisbətən çoxdur, lakin büdcə də dəfələrlə artmışdır.

*Xərclərin ümumi məbləğinin gəlirlərin ümumi məbləğindən çox olması vəziyyətinə* ***dövlət büdcəsinin kəsiri****, yaxud çatışmazlığı deyilir.*

Ölkədə büdcə çatışmazlığı aşağıdakı üsullardan istifadə etməklə aradan qaldırılır:

- büdcə xərclərinin azaldılması;
- əlavə gəlir mənbələrinin axtarılması;
- dövlət xərclərinin maliyyələşdirilməsi üçün əlavə pul buraxılması;
- borc pul alınması.

Bu üsulları nəzərdən keçirək.

Xərclərin azaldılması büdcə kəsirinin ləğv edilməsinin ən sadə üsuludur, lakin o qədər də əlverişli hesab edilə bilməz. Çünki, məsələn, təhsil sahəsində xərclərin cüzi də olsa azaldılması yeni çətinliklər yaranmasına gətirib çıxarar. Yeniyetmələrin məktəblərdə oxumaq imkanları məhdudlaşar, müəllimlərin bir hissəsi işsiz qalar. Sosial xərclərin azaldılması nəticəsində imkansız ailələrin vəziyyəti daha da ağırlaşar. O biri sahələrdə də qənaət ediləcək vəsait tapmaq çətindir, çünki büdcə çatışmazlığı şəraitində onsuz da hər bir sahəyə ən aşağı məbləğdə vəsait ayrılır.

Lakin elə bir vəziyyət yarana bilər ki, dövlət xərcləri azaltmağa məcbur olsun. Belə vəziyyət pulsuzluq və ya sekvestr vəziyyəti adlanır.




***Büdcənin sekvestri*** – *dövlətin cari ildə planlaşdırmaya zidd olaraq xərcləri azaltmasıdır.*

Əlavə gəlir mənbələrinin axtarılması yeni vergilərin tətbiq edilməsinə  və ya vergi dərəcələrinin artırılmasına gətirib çıxarır. Bu isə istehsalın azalmasına və vergi ödəyicilərinin narazılığına səbəb ola bilər.

Əlavə pul buraxılması daha təhlükəlidir. Çünki iqtisadiyyatın real tələbatından artıq pul buraxmaq, yəni emissiya çox qısa müddət üçün vəziyyəti düzəldə bilər. Sonra isə qiymətlər sürətlə artır və inflyasiya baş verir.




*Pulun və digər qiymətli kağızların buraxılmasına* ***emissiya*** *deyilir.*



***İnflyasiya*** *– dövriyyədə olan kağız pulların qiymətdən düşməsi, yəni onun alıcılıq qabiliyyətinin azalmasıdır.*

Büdcədə pul çatışmadıqda dövlət borc alma üsulundan da istifadə edir.



Bu, müxtəlif cür həyata keçirilə bilər. Məsələn, əhaliyə qiymətli kağızlar satmaqla, daxili və xarici banklardan kredit götürməklə və s.

Borc pul alma bir çətinliyi aradan qaldırırsa da, yeni çətinlik yaradır: dövlət borclu qalır. Alınan vəsait səmərəli istifadə edilsə, onda dövlət borcu iqtisadiyyata o qədər də təsir etmir.

*Büdcənin gəlirlərinə və xərclərinə aid bəzi məsələlərə baxaq.*

1. Respublikamızın dövlət büdcəsinin gəlirləri 16438 milyon manatdır. Təhsil üçün xərclər 1583 milyon manat təşkil edir. Gəlirlərin neçə faizi təhsil üçün xərclənir?

***Həlli.*** Gəlirləri 100 faiz, təhsil üçün xərclərin faizini X qəbul etsək,

$$X = \frac{1583000000 \cdot 100\%}{16438000000} = 9{,}63\%$$

alarıq. Deməli, gəlirlərin 9,63 faizi təhsil üçün xərclənir.

2. Əhalidən tutulan gəlir vergisinin ümumi məbləği 722 milyon manatdır. Fərz edək ki, bu plan 105 faiz yerinə yetirilib. Onda büdcəyə nə qədər əlavə vəsait daxil olacaq?

***Həlli.*** 722 milyon manatın 5 faizini tapaq. Bu 5 faizi təşkil edən məbləğ

$$X = \frac{722000000 \cdot 5\%}{100\%} = 36{,}1 \text{ milyon (manat)}$$

büdcəyə əlavə kimi daxil olacaq.

3. Dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərcləri 1786 milyon manat nəzərdə tutulmuşdur. Bu vəsaitin 20 milyon manatı sosial təminata xərclənəcək. Sosial müdafiəyə xərclənəcək vəsait ümumi məbləğin neçə faizini təşkil edir?

***Həlli.*** 1786 milyon manat 100 faizdirsə, 1786-20=1766 milyon manatın neçə faiz olduğunu müəyyənləşdirək:

$$X = \frac{1766 \cdot 100\%}{1786} = 98{,}88\%.$$

Deməli, vəsaitin 98,88 faizi sosial müdafiə üçün istifadə edilməlidir.

## YOXLAMA TAPŞIRIQLARI

*1.Aşağıdakı suallara cavab verin:*

- *İqtisadi sərbəstlik nə üçün lazımdır?*
- *Büdcə kəsiri nədir?*
- *Büdcə kəsirini aradan qaldırmaq üçün hansı üsullardan istifadə edilir?*
- *Sekvestr nədir?*
- *İnflyasiya nə üçün baş verir?*

*2. Respublikamızın 2012-ci il üçün dövlət büdcəsinin xərcləri 17 milyard manatdır. Bu məbləğin 3,9 faizi səhiyyə üçün ayrılmışdır. Səhiyyə nə qədər pul xərcləndiyini hesablayın.*

# 3. VERGİLƏR BARƏDƏ QISA TARİXİ MƏLUMAT

## 3.1. Qədim dövrlərdə vergilər

Vergilərin yaranması tarixi dövlətlərin təşəkkül tapması və cəmiyyətlərin siniflərə bölünməsi dövrünə təsadüf edir. Bu dövrdə idarəetmə orqanları və ordu formalaşırdı, onların saxlanması üçün vəsait tələb olunurdu.

Vergitutma ilk mərhələdə təsadüfi xarakter daşıyırdı. Bəzi ölkələrdə yalnız müharibəyə hazırlıq dövründə əhalidən vergi yığılardı, digərlərində könüllü yardımlar şəklində varlı adamlardan alınardı.



Müharibədə məğlub olan ölkənin əhalisi bac-xərac verirdi.

***Bac və ya bac-xərac – müharibədə qalibin məğlubdan aldığı təzminat və bir yerdən başqa yerə aparılan satış mallarına görə alınan vergidir.***

Dövlətin yarandığı ilk dövrlərdə vergilər əsasən natural formada, məsələn, ərzaq məhsulları ilə ödənilərdi. Əmtəə-pul münasibətləri inkişaf edib möhkəmləndikcə vergilər də pul forması almağa başladı.

Bəzi Şərq ölkələrində olduğu kimi Azərbaycanda da vergi uzun müddət töycü adlanmışdır. Töycü ərzaq və pul ödəmələri şəklində olurdu. Bundan əlavə kəndliləri məcburi biyara aparırdılar, yəni onlar mülkədarlar üçün müftə işləyirdilər.

Vergilər barədə aşkara çıxarılmış ilk məlumat təqribən 3800 il əvvələ aiddir. Quldarlıq dövrünün hüquqi əsaslarına aid olan abidələrdə vergilər barədə yazılara da rast gəlinir. Məsələn, nəhəng dirəkdə 282 maddədən ibarət Hammurapi qanunları adlanan yazılarda mülkiyyət və məhkəmələr, habelə vergilər barədə də maddələr var.

Babilistan hökmdarı Hammurapi eramızdan əvvəl XVIII əsrin birinci yarısında yaşamışdır. Onun hökmdar-

lıq etdiyi dövrdə əmlakdan vergi əsasən natural formada (mal-qara, taxıl, əşyalar şəklində) ödənilsə də, puldan da istifadə olunurdu. Hökmdar xəzinəsinə və yerli xəzinələrə adambaşına bütün əmlakın 10 faizi vergi kimi ödənilirdi. Vergilər torpaq sahibləri və sənətkarlara - yəni fiziki şəxslərə aid idi, onlar torpaq sahəsinə, malikanəyə, mal-qaraya görə vergi verirdilər.

Eramızdan əvvəl V əsrdə «On iki cədvəl» adlanan Roma qanunları yazılmışdı. Bu qanunlarda da vergitutma barədə maddələr mövcuddur.

Qədim Hindistanda vergi ödəmə qaydaları Manu qanunları ilə tənzim olunurdu.



Eramızdan əvvəl II əsrə aid olan bu qanunlara görə vergi obyektləri əmlak, ticarət, alınmış məhsul hesab edilirdi. Vergilər mərkəzi və yerli, gündəlik və illik olurdu.

Məsələn, illik məhsulun altıda bir hissəsi, mal-qara və qızılın əllidə bir hissəsi dövlət xəzinəsinə verilirdi. Manu qanunlarında güzəştlər də nəzərdə tutulmuşdu. Məsələn, bəzi hallarda taxıl məhsulunun altıda bir hissəsi əvəzinə səkkizdə bir yaxud on ikidə bir hissəsi alınırdı. Brəhmənlər (ali kahinlər silkinə mənsub olanlar) və Manu qanunlarını bilənlər vergidən azad edilirdilər.

Qədim Misirdə vergi yığanlar əsasən yazı-pozu işini yaxşı bilən mirzələr olurdular.



Hər bir fironun (hökmdarın) qəbrində ona qulluq edəcək adamların heykəlləri ilə bərabər vergiyığan heykəli də qoyurdular. Vergiyığanlar hökmdarlar öləndən sonra da onlara xidmət etməli, dövlət xəzinəsini doldurmalıydılar.

İlk mütəşəkkil vergi sistemlərindən biri Qədim Romanın vergi sistemidir. Roma dövləti zəbt etdiyi ərazilərdən yığdığı qənimət və əhalidən alınan vergilər hesabına böyük

sərvətə malik idi. Maraqlıdır ki, Roma vergi sistemində gəlir vergisi yox idi, onları vərəsəlik və can vergiləri əvəz edirdi. Məsələn, vərəsəlikdən vergi vəsaitin 5 faizi, qul satışından vergi isə 4 faizi məbləğində idi. Romalılar yaşayış məntəqələri arasına 80 min km uzunluğunda yol çəkmişdilər və bu, imperiyanın bütün ərazisində vergilərin yığılmasını asanlaşdırmaq üçün edilmişdi. Lakin Roma vergitutma sistemi o qədər ağır idi ki, kütləvi qanun pozuntuları adət şəklini almışdı. Vergi ödəmək əvəzinə məmurlara rüşvət vermək əhaliyə daha ucuz başa gəlirdi. Hamı yüksək dərəcəli və çoxsaylı vergilərdən cana doymuşdu. Vəziyyəti düzəltmək istəyən imperator Qay Yuli Sezar (e.ə. 100-44-cü illər) vergi islahatı keçirdi və vergilərin sayını xeyli azaltdı. O dövrdə 150 min adam pulsuz çörək ala bilirdi. Sonralar Oktavian Avqust isə bu güzəşti 200 min adama aid etmişdi. İslahatdan sonra vəziyyət müvəqqəti olaraq qaydaya düşdü, lakin az sonra vergi yükü yenidən artmağa başladı. Bu da böyük Roma imperiyasının dağılmasına gətirən səbəblərdən biri oldu.

## 3.2.Ərəb xilafətində vergilər

Ərəbistanda islam dini qəbul edildikdən sonra xristianlardan və yəhudilərdən cizyə adlanan can vergisi, müsəlmanlardan zəkat alınırdı. Zəkat heyvanlar, qızıl və gümüş,

ticarət malları və ərazi üçün ödənirdi. Yağışla suvarılan ərazilərdən məhsulun onda biri, süni surətdə suvarılan ərazilərdən isə məhsulun iyirmidə biri alınırdı. Taxıl bitkilərindən zəkat verilmirdi. Zəkat yığıb kasıblara paylamaq üçün xüsusi məmurlar göndərilirdi. Zəkatdan əlavə xüms, fitrə və s. də alınırdı.

***Zəkat*** *– islam dinində əldə edilmiş mal və mülkün halallığını təmin etməkdən ötrü, onun dini ehtiyaclar və kasıblara verilmək üçün ayrılan hissəsidir.*

***Cizyə*** *– müsəlman olmayanlardan alınan can vergisidir.*

***Xüms*** *– mülkiyyətdən alınan vergidir, gəlirin beşdə bir hissəsi ödənilir.*

***Fitrə (zəkat-əl-fitr)*** *– ailə üzvlərinin sayına görə ramazan bayramında yoxsullara verilməli olan sədəqəyə deyilir.*

Ərəb xilafətinə daxil olan ərazilərdə də islam vergi qaydaları tətbiq edilirdi. Bu qaydalardan bəzi müsəlman ölkələrində indi də istifadə edilir.

Müxtəlif ev heyvanlarından zəkatın miqdarını göstərək.

Qırxdan yüz iyirmiyə qədər qoyun və keçidən bir ədəd, yüz iyirmi birdən iki yüzə qədər qoyun və keçidən iki ədəd, iki yüz birdən üç yüz doxsan doqquza qədər qoyun və keçidən üç ədəd və s. zəkat ödənir.

Qaramalı olan hər bir kəs otuzdan otuz doqquza qədər inək və ya camış üçün bir yaşında dana, qırxdan əlli doqquza qədər inək və ya camış üçün iki yaşında dana, altmışdan altmış doqquza qədər inək və ya camış üçün bir yaşında iki dana və s. zəkat verməlidir.

VII əsrin ortalarında Azərbaycan Ərəb Xilafətinin tərkibinə daxil oldu. Buraya köçüb gəlmiş ərəb zadəganları böyük torpaq sahələrinə yiyələndilər. Yerli feodalların da ixtiyarında mülk adlanan torpaqlar var idi.

Bundan başqa, iqta adlanan torpaqlar ömürlük, yaxud müəyyən müddətə əyanlara verilirdi. Dini idarələrə məxsus torpaqlar vəqf adlanırdı. Torpaq sahibləri öz torpaqlarını icarəyə verir və onu becərənlərdən vergi alırdılar. Kəndli becərdiyi məhsulun onda bir hissəsini sahibkara verirdi.

Bundan əlavə, yol salmaq, körpü tikmək, arxlar çəkmək və s. üçün də ayrıca vergi tutulurdu. Üstəlik yuxarıda göstərilən cizyəni, yaxud xüms və zəkatı da nəzərə alsaq,

həmin dövrdə vergi yükünün nə qədər ağır olduğunu təsəvvür etmək çətin deyil.




Bəziləri vergiləri ödəyə bilmədiklərinə görə qaçıb başqa yerə köçməklə canlarını qurtarmaq istəyirdilər. Bunun qarşısını almaq üçün vergi ödəyicilərinin kürəyinə yaşayış yerini göstərən nişan vurulurdu.

## 3.3. Orta əsrlərdə vergilər

IX əsrin ortalarında Ərəb xilafəti zəiflədi, xilafətə daxil olan ölkələrdə müstəqillik meyli güclənməyə başladı. Bu ölkələri idarə edən hökmdarlar mərkəzi hakimiyyətə tabe

olmaq istəmir, vergiləri xilafət xəzinəsinə ödəməkdən imtina edirdilər. Xilafətin dağılması nəticəsində Azərbaycan ərazisində bir neçə dövlət yarandı. Bu dövlətlərdə torpaqların çox böyük hissəsi hakim sülalənin əlində cəmləşmişdi. Mülkədarların da ixtiyarında torpaqlar var idi. İqta adlanan torpaq sahələri də tədricən onların ixtiyarına keçirdi. Bu dövrdə ticarət əlaqələrinin daha da genişlənməsi nəticəsində Azərbaycandan xalça, ipək parça, saxsı və mis qablar, pambıq və s. malların ixracı artdı. Lakin yeni sərhədlər əmələ gəldiyinə görə yeni vergilər də yarandı. Məsələn, bir feodalın ərazisindən digərinə keçəndə aparılan mallara görə rəxtar vergisi (indiki dillə desək, gömrük rüsumu) alınırdı.

XIII əsrdə Azərbaycanı monqollar zəbt etdilər. Onlar əhalidən qırxa qədər adda vergi toplayırdılar. Baskaklar adlanan vergiyığanlar əhaliyə çox böyük əziyyət verir, vergiləri nəzərdə tutulduğundan artıq alırdılar.

Monqol hökmdarları vergi işini nizama salmaq üçün kişiləri siyahıya alıb onlara can vergisi tətbiq etdilər.

XV əsrdə görkəmli dövlət xadimi Uzun Həsən Ağqoyunlular dövlətində vergi toplanmasında qayda yaratmaq üçün Qanunnamə adlanan fərman imzaladı. Bu fərmanda göstərilən qaydalar Azərbaycanın çox böyük hissəsində bir neçə əsr qüvvədə olmuşdur.

Səfəvilər dövlətində kəndlilər torpaqlardan icmalıqla istifadə edir və vergiləri birlikdə ödəyirdilər. Bu vergilər top-

lanan məhsulun əsasən onda bir hissəsini təşkil edirdi. İcmalara kəndxudalar başçılıq edirdilər. Maldarlıq və ya qoyunçuluqla məşğul olanlar çobanbəyi adlanan vergi ödəyirdilər.

Azərbaycanda xanlıqlar dövründə rəiyyət adlanan kəndlilər becərdikləri məhsulun onda birindən üçdə birinə qədərini torpaq sahiblərinə verməli olurdular. Bu vergi malcəhət adlanırdı. Bağ becərənlərdən bağbaşı, otlaqlardan istifadə edənlərdən çöpbaşı deyilən vergilər alınırdı.

Rusiyada vergi sisteminin inkişaf prosesinə nəzər salaq. IX-X əsrlərdə rus knyazları həyətə (tüstü vergisi) və əsas əkin aləti olan cütə vergi qoyurdular.





Knyaz Oleq əhalidən tutulan vergiləri azaltmaqla xeyli ərazini zəbt edə bilmişdi. Lakin knyaz İqor sələfindən fərqli olaraq, eyni vergini iki dəfə yığmağa cəhd etmişdi və ona görə də öldürüldü.

Rusiya tatar-monqol əsarətinə düşdükdən sonra knyazlar Qızıl Ordaya çıxış adlanan vergi ödəməli oldular. Məsələn, Dmitri Donskoyun dövründə (XIV əsr) çıxış 1000 rubl, knyaz Vasilinin dövründə (XV əsrin əvvəli) isə artıq 5000 rubl idi. Az sonra bu məbləğ 7000 rubla çatdı. Lakin bundan əlavə əhali yerli vergiləri də ödəməli olurdu.

Rusiya müstəqil dövlət olduqdan sonra çıxış adlanan vergi verilən pullar adlanmağa başladı. Əhali siyahıya alındı və bu vergi işini qaydaya salmağa imkan verdi.

Çar İvan Qroznının dövründə (XVI əsr) vergi əsasən torpaq sahəsi üçün, malların idxalı və ixracı üçün, habelə spirtli içkilərin satışı üçün tutulurdu. Dövlətin xərcləri artdıqca vergilər də tədricən artırılırdı. Bu isə əhalinin tamamilə var-yoxdan çıxıb dilənçi kökünə düşməsinə səbəb olurdu. 1648-ci ildə Rusiyada duz qiyamı deyilən qiyam baş verdi. Çar Aleksey duza vergini birdən birə dörd dəfə artırdı (hər pud duz üçün 5 qəpik əvəzinə 20 qəpik vergi

ödənməliydi). Çaylarda tutulan balığı duzlamaq həddindən artıq baha olduğundan balıqlar xarab olur, atılırdı. Qiyamı yatıra bilməyən çar təzədən vergini azaltmağa məcbur oldu.

Dövlətin gəlirlərini artırmaq üçün vergiləri artırmaq və yeni vergi növü fikirləşib tapmaq lazım idi. Birinci Pyotr dövründə arabaçılar qazanclarının onda birini təhvil verməliydilər. Soba üçün, qarpız üçün ayrıca vergi ödənilirdi. Həmin dövrdə həyət üçün alınan vergi adambaşı vergi (can vergisi) ilə əvəz olundu. Lakin bu kişilərə aid idi, qadınlardan vergi tutulmurdu. Kəndlilər ildə xəzinəyə 74 qəpik, şəhərlilər isə 1 rubl 14 qəpik ödəyirdilər. Vergilərin ödənilməsində yeni qaydalar Birinci Pyotra imkan verdi ki, büdcədə yığılan vəsaitdən istifadə edib sənayeni, ticarəti genişləndirsin. Bunun nəticəsində əhalinin gəliri də artmağa başladı və beləliklə də, vergilərin məbləği görünməmiş həddə çatdı. I Yekaterina hakimiyyətə keçdikdən sonra kəndlilərin illik vergisini 74 qəpikdən 70 qəpiyə endirdi.

Rusiya vergi sistemində sonrakı islahatlar II Yekaterinanın adı ilə bağlıdır. XVIII əsrin axırlarında keçirilən bu islahat nəticəsində tacirlər gəlirlərinə görə iki cür – 2,5 faiz və 4 faiz vergi ödəyirdilər.

Rusiya imperiyasının tərkibinə daxil edildikdən sonra Azərbaycanda da Rusiyada olan vergi qanunları tətbiq edilməyə başladı.

## 3.4. Müasir dövrdə vergi sistemləri

Dünyanın əsas ölkələrində XIX əsrdən başlayaraq, vergi sistemində mühüm keyfiyyət dəyişikliyi müşahidə olunur. Bu dövr vergilərin tutulmasında hüquqi bazanın yaranması və vergilərin sayının azalması ilə xarakterizə edilir. İstehsalın inhisarçı inkişafı ilə əlaqədar olaraq iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi mühüm əhəmiyyət kəsb etməyə başlayır və vergilər ölkələrin dövlət gəlirlərinin əsas mənbəyinə çevrilir. Məsələn, XIX əsrin axırlarında Böyük Britaniyada vergilər dövlət büdcəsinin gəlir hissəsinin 91 faizini, Rusiyada isə 81 faizini təşkil edirdi. Əhalinin bir hissəsi həddindən artıq varlanmışdı, xeyli hissəsi isə dilənçi kökündə yaşayırdı. Hökumətlər sabitliyin və sosial ədalətin saxlanması üçün vergi qanunvericiliyini elə qəbul etməliydilər ki, əhalinin ən yoxsul təbqəsi də təmin olunsun.

XX əsrin əvvəllərində elmi cəhətdən əsaslandırılmış vergi islahatları həyata keçirilməyə başladı. Lakin Rusiya imperiyası ərazisində yaradılmış Sovet İttifaqı tamam başqa yolla gedirdi. Xüsusi mülkiyyət tədricən dövlət mülkiyyətinə keçir, vergilər sinfi mübarizə xarakteri daşıyırdı.

Məsələn, Sovet hakimiyyətinin ilk illərində büdcəyə 86 növ ödəniş mövcud idi. Əhalinin gəlirlərinin, demək olar ki, hamısı onların əllərindən alınırdı.

Otuzuncu illərdən başlayaraq, Sovet İttifaqında vergilərin əhəmiyyəti getdikcə azalırdı və onlardan daha çox qolçomaqlara qarşı mübarizə üçün istifadə edilirdi. 1930-1932-ci illərdə aparılan vergi islahatları nəticəsində müəssisələr üçün iki növ vergi ödənişi – dövriyyə vergisi və mənfəətdən ayırmalar təyin edildi, aksizlər tamamilə ləğv edildi. Fondlara normativ ayırmalar istisna olmaqla sənaye və ticarət müəssisələrinin bütün mənfəəti büdcəyə keçirilirdi. Beləliklə, dövlətin gəliri vergilər hesabına deyil, ümumi milli məhsulun dövlətin xeyrinə məcburən alınması hesabına formalaşırdı.

Sovet dövrünün vergi sistemi dünyada oxşarı olmayan bir sistem idi. Müəssisələrin gəlirlərinin əsas hissəsi, işləyən əhalinin maaşının 13 faizi tutulurdu. Əslində, dövlət əhalidən və müəssisələrdən, demək olar ki, bütün gəliri alır və işçilərə cüzi əmək haqqı verirdi. Pensiyaçıların, əlillərin və başqa az qazancı olan şəxslərin də təminatı onların tələbini ödəyəcək səviyyədə deyildi.

Səksəninci illərin axırında Sovet İttifaqının dövlət büdcəsinin 90 faizdən çoxu xalq təsərrüfatından daxil olan vəsaitlər hesabına formalaşırdı. Əhalidən tutulan vergilərin xüsusi çəkisi isə cəmisi 7-8 faiz təşkil edirdi.

İnkişaf etmiş ölkələrdə isə vəziyyət tamamilə başqa cür idi. Səksəninci illərdə gəlir vergisi Amerika Birləşmiş Ştatlarında büdcənin gəlir hissəsinin 44,7 faizini, Böyük Britaniyada 32 faizini, Kanadada 37 faizini təşkil etmişdi.

Lakin büdcəyə daxil olan vəsaitdə gəlir vergisinin payının artması vətəndaşların vergi yükünün ağırlaşmasına səbəb olmurdu. Çünki vergilərin dərəcələri elə təyin edilirdi ki, gəlirləri çox yüksək və çox aşağı olan vətəndaşlar arasında uyğunsuzluq qismən də olsa aradan qaldırılsın.

Doxsanıncı illərin əvvəlində Sovet İttifaqının dağılması nəticəsində yaranan müstəqil respublikalar bazar iqtisadiyyatına keçməklə sovet vergi sistemindən fərqli yeni vergi sistemi qəbul etməli oldular. Bu respublikalardan biri olan Azərbaycan Respublikasında təcili olaraq, vergilər barədə yeni qanunlar qəbul edildi. 2000-ci ildə isə respublikamızın Vergi Məcəlləsi Milli Məclis tərəfindən ətraflı müzakirələrdən sonra bəyənildi; bu Məcəllə 2001-ci il yanvarın 1-dən qüvvəyə minmişdir. Sonrakı illərdə aparılan dəyişikliklər Məcəllənin daha da təkmilləşməsinə səbəb olmuşdur.

## YOXLAMA TAPŞIRIQLARI

*1. Müharibədə qalib dövlətin məğlub dövlətdən aldığı təzminata nə deyirdilər? Bu sözə indiyə qədər harada rast gəlmisiniz?*

*2. Vergilər barədə quldarlıq dövrünə aid bildiyiniz məlumatları sayın.*

*3. Manu qanunları haqqında siz hansı məlumatları bilirsiniz?*

*4. Qədim Romada vergi yığan məmurlara niyə rüşvət verirdilər?*

*5. Zəkat, xüms, fitrə, cizyə anlayışlarını izah edin.*

*6. Duz qiyamı nə üçün baş vermişdi?*

*7. Sovet hakimiyyəti dövründə vergilərin əhəmiyyətinin nə üçün azaldığını aydınlaşdırın.*

•

# 4. AZƏRBAYCAN RESPUBLİKASININ VERGİ SİSTEMİ

## 4.1. Respublikamızda vergilər

Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçidlə əlaqədar olan əsaslı iqtisadi dəyişikliklər yeni vergi sisteminə keçilməsinə səbəb oldu.

Vergi sistemi dedikdə ölkə ərazisində ödəyicilərdən qanunla müəyyən edilmiş şəkildə tutulan vergilər, yığımlar, rüsumlar və digər ödənişlər nəzərdə tutulur.

Vergi Məcəlləsinə görə respublikamızda aşağıdakı vergilər müəyyən edilmişdir:

- dövlət vergiləri;
- muxtar respublika vergiləri;
- yerli vergilər (bələdiyyə vergiləri).

Dövlət vergilərinə aşağıdakılar aiddir:

- fiziki şəxslərin gəlir vergisi;
- hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa);
- əlavə dəyər vergisi;
- aksizlər;
- hüquqi şəxslərin əmlak vergisi;
- hüquqi şəxslərin torpaq vergisi;
- yol vergisi;

- mədən vergisi;
- sadələşdirilmiş vergi.

Muxtar respublika vergilərinə bütün dövlət vergiləri aiddir.

Yerli vergilər aşağıdakılardır:

- fiziki şəxslərin torpaq vergisi;
- fiziki şəxslərin əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

## 4.2. Vergi sistemində əsas anlayışlar

Vergi qanunvericiliyi əsas anlayışların dəqiq müəyyən olunmasını tələb edir. Vergilər haqqında qanunlarda aşağıdakılar müəyyən olunmalıdır:

- vergi ödəyicisi;
- vergitutma obyekti;
- vergitutma bazası;
- vergi dövrü;
- vergi dərəcəsi;
- verginin hesablanması qaydası;
- verginin ödənilməsi qaydası və müddəti.

Bu anlayışların düzgün başa düşülməməsi vergi orqanlarının işini çətinləşdirər, ödəyicilərin vergidən yayınmasına səbəb olar.

Vergi ödəyicisi – qanuna görə vergi ödəməli olan şəxsdir. Ayrı-ayrı şəxslər (fiziki şəxslər) və müəssisələr, təşkilatlar (hüquqi şəxslər) vergi ödəyicisi olur.

Vergi qanunlarına görə, ödəyicilər rezident və qeyri-rezident adlanır. Məsələn, əgər şəxs Azərbaycan Respublikası ərazisində il ərzində 182 gündən artıq yaşayıbsa, o, rezident hesab edilir. Rezident ölkə daxilində və xaricində bütün gəlirləri üçün vergi ödəməlidir. Respublika ərazisində 182 gün və ya daha az yaşayan hər bir şəxs qeyri-rezident hesab edilir və o, yalnız ölkə daxilində əldə etdiyi gəlirlərindən vergi verir.

Vergitutma obyekti – gəlir, mənfəət, əmlak, torpaq, faydalı qazıntılar və s. ola bilər. Qanunda dəqiq göstərilir ki, ödəyicinin hansı işi və vəziyyəti üçün vergi verilməlidir. Lakin verginin məbləği vergitutma obyektinin vergi tutulan hissəsinin kəmiyyəti ilə müəyyən edilir. Bu kəmiyyət vergitutma bazası adlanır. Məsələn, şəxsin avtomobili varsa, o, nəqliyyat vasitəsinə sahib olduğuna görə vergi verməlidir. Avtomobil vergitutma obyektidir. Lakin avtomobillər müxtəlif olur. Yük daşıma maşını üçün verilən vergi yüngül minik avtomobili üçün vergi ilə eyni ola bilməz. Ona görə nəqliyyat vasitələri üçün vergi bazası mühərrikin həcmi hesab edilir. Vergi Məcəlləsində nəzərdə tutulmuşdur ki, avtonəqliyyat vasitələrinin mühərrikinin hər kubsantimetrinə görə, minik avtomobilləri üçün mühərrikin həcminin 2000 kub santimetrədək hissəsinə

0,01 manat, 2000 kub santimetrdən artıq hissəsinə 0,02 manat, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri üçün isə 0,02 manat ödənilməlidir.

"Verginin dərəcəsi" dedikdə vergi bazası vahidinə düşən verginin miqdarı başa düşülür.

Məsələn, avtonəqliyyat vasitələrinin mühərrikinin hər kub santimetri üçün yuxarıda göstərilən 0,01 manat və 0,2 manat vergi dərəcələridir.

Yaxud, aylıq əməkhaqqının 2000 manatadək olan hissəsinin hər manatından 14 qəpik vergi tutulur. Bu o deməkdir ki, verginin dərəcəsi göstərilən hal üçün 14 faizdir. Yəni məsələn, 1200 manat maaş alan hər bir şəxs aldığı məbləğin 14 faizini, yəni 0,14 hissəsini gəlir vergisi kimi ödəməlidir. Onda verginin məbləği

$$1200 \cdot 0{,}14 = 168 \text{ (manat)}$$

olacaq.

Vergi dərəcəsi təkcə faizlə müəyyən edilmir, həm də məlum məbləğdə ola bilər.

Məsələn, Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtonəqliyyat vasitələrinin sahibləri yol vergisi ödəyirlər. Minik avtomobilləri üçün 15 ABŞ dolları, avtobuslar üçün oturacaq yerlərinin sayından asılı olaraq, 15 ABŞ dollarından 25 ABŞ dollarına qədər vergi nəzərdə tutulmuşdur.




Avtonəqliyyat vasitələrinin oturacaqlarının sayından asılı olaraq, ölkə ərazisində qaldığı müddətə görə də vergi məbləği dəyişir. Məsələn, oturacaq yerlərinin sayı 13-dən 30-dək olan avtobuslar ölkə ərazisində 1 gün qaldıqda 20, bir həftəyədək qaldıqda 40, bir aya qədər qaldıqda 140, üç aya qədər qaldıqda 400, bir ilə qədər qaldıqda 1400 ABŞ dolları vergi ödənir.

Bunlardan əlavə verginin hansı dövr üçün verildiyi və nə vaxt veriləcəyi dəqiq məlum olmalıdır. Bütün bunlar qanunla tənzimlənir. Məsələn, aylıq maaş alan hər bir şəxs həmin ay üçün vergini maaş aldıqda ödəyir, daha doğrusu, vergi onun maaşından çıxılır. Hüquqi şəxslər və sahibkarlar rüb qurtardıqdan sonra mənfəət (gəlir) vergisini 15 gündən gec olmayaraq, cari ödəmələri dövlət büdcəsinə

ödəməlidirlər. Rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin aprel ayının 15-dək, digər şəxslər isə aprel ayının 1-dək bütün vergiləri ödəməlidirlər.

Vergi vəsaitlərinin mənbəyi gəlir və ya kapital ola bilər.

***Kapital** dedikdə sərmayə, sərvət, əmlak, istehsal vasitələri və s. hamısı birlikdə başa düşülür.*

Torpaq sahəsi xüsusi mülkiyyətdirsə, o da vergi mənbəyidir. Torpaq üçün vergi verilməsi onun istifadə edilib edilməməsindən asılı deyil. Əgər sahibkar həmin sahədən məhsul götürürsə və bu məhsulu satmaqla gəlir əldə edirsə, həmin gəlirdən də vergi ödəməlidir. Gəliri olmayan sahibkar torpaq vergisi vermək üçün əmlakının bir hissəsini satmağa məcbur olur.

Beləliklə, heç bir gəlir götürməyən adamın müəyyən vaxtdan sonra kapitalı da qalmayacaq.

Yuxarıda göstərildiyi kimi, verginin məbləğini hesablamaq üçün vergi dərəcəsi məlum olmalıdır. Məsələn, vergi dərəcəsi 18 faizdirsə, onda hər yüz manatdan 18 manat dövlət büdcəsinə ödənilir. Faiz ədədin yüzdə bir hissəsinə deyildiyinə görə müəyyən ədədin bir faizini tapmaq onu

0,01-ə, beş faizini tapmaq onu 0,05-ə, 29,3 faizini tapmaq onu 0,293-ə vurmaq deməkdir. Bunu nəzərə alsaq, vergi dərəcəsi kimi, məsələn, 18 faiz, yaxud $\frac{18}{100}=0{,}18$ ədədi eyni mənanı ifadə edir. Hesablaşmalarda hər iki yazılışdan istifadə etmək olar.

Tutaq ki, vergitutma bazası 27500 manatdır və bundan 18 faiz vergi dərəcəsi ilə vergi tutulur. Büdcəyə daxil olan məbləğ

$$X = \frac{27500 \cdot 18}{100\%} = 4950 \text{ (manat)}$$

yaxud

$$X=27500 \cdot 0{,}18=4950 \text{ (manat)}$$

kimi hesablana bilər.

Nəqliyyat vasitələri üçün vergi dərəcəsi başqa cür, yəni mühərrikin həcminə görə müəyyən edilir.

Fərz edək ki, mühərrikin həcmi 1200 kub santimetrdir. Hər kub santimetrə 0,01 manat vergi tutulduğunu qəbul edib, minik avtomobili üçün ödənməli olan vergi məbləğini hesablayaq.

Aydındır ki, mühərrikin həcmini (yəni 1200 kub santimetri) hər kub santimetrə görə ödəniləcək məbləğə (0,01 manata) vurmalıyıq;

$$X=1200 \cdot 0{,}01=12 \text{ (manat)}.$$

## YOXLAMA TAPŞIRIQLARI

*1. Azərbaycan Respublikasının Dövlət vergiləri ilə Muxtar Respublika vergiləri arasında fərqi izah edin.*

*2. Aşağıdakı suallara cavab verin:*

- *Vergitutma obyekti və bazası dedikdə nə başa düşürsünüz?*
- *Torpaq nə vaxt vergi mənbəyi ola bilər?*
- *Vergilərin ödənmə vaxtı barədə sizə nə məlumdur?*
- *Kapital nədir?*

*3. Minik avtomobilinin mühərrikinin həcmi 1570 kubsantimetrdir. Vergi məbləğini hesablayın.*

*4. Vergi dərəcəsinin onluq kəsr şəklində və ya faizlə göstərilməsinin nə fərqi var? İzah edin.*

# 5. GƏLİR VERGİSİ

## 5.1. Gəlir vergisinin yaranması və müxtəlif ölkələrin büdcəsinə təsiri

Gəlir vergisi hazırda dünyanın inkişaf etmiş ölkələrində mövcud olan əsas vergilərdən biridir.



Bu vergi ilk dəfə XVIII əsrin ikinci yarısında Böyük Britaniyada baş nazir Uilyam Pittin təklifi ilə tətbiq edilmişdir. Həmin dövrdə Britaniya imperiyası Fransa ilə müharibə aparırdı və bunun üçün çoxlu vəsait tələb olunurdu. İki il tətbiq edildikdən sonra bu vergi ləğv edildi.

Lakin dövlət xəzinəsinin doldurulması üçün müstəsna əhəmiyyətini nəzərə alıb gəlir vergisinə yenidən qayıtmalı oldular. Çünki yenə də müharibə xərcləri dövlət xəzinəsini boşaltmışdı.



Bu dəfə gəlir vergisi əhalidən 1803-cü ildən 1816-cı ilə qədər yığıldı. Ölkə vətəndaşlarını cana doydurmuş bu vergi ilə əlaqədar bütün sənədləri yandırdılar. Lakin yandırma mərasimi gəlir vergisinin axırına çıxa bilmədi. 1842-ci ildə həmin vergi yenidən tətbiq edildi. O vaxtdan indiyə qədər İngiltərə vətəndaşları bu vergini müntəzəm olaraq ödəyirlər.

Gəlir vergisi digər ölkələrdə də dövlət büdcəsinə xeyli vəsait yığmağa imkan verir.




*Müxtəlif ölkələrin vergilərinin ümumi məbləğində gəlir vergisinin payı.*




*Fiziki şəxslərin gəlir vergisinin ən böyük dərəcələri*

İnkişaf etmiş ölkələrin çoxunda gəlir vergisinin dərəcələri həddindən artıq yüksəkdir. Bəzi ölkələrdə son vaxtlar ən böyük dərəcələrdə bir qədər azalma müşahidə edilir.

Müqayisə göstərir ki, gəlir vergisinin dərəcələri Azərbaycanda Qərbi Avropa ölkələrində olduğundan çox aşağıdır. Məsələn, Almaniyada, İspaniyada, Fransada, İsveçdə və bir çox başqa ölkələrdə bu dərəcə 50 faizdən yuxarıdır, Azərbaycanda isə ən yüksək dərəcə 30 faizdir. Lakin nəzərə almaq lazımdır ki, həmin ölkələrdə əhalinin gəliri də respublikamızda olduğundan xeyli çoxdur.

## 5.2. Azərbaycanda gəlir vergisi

Azərbaycanda gəlir vergisi XIX əsrin axırlarında və XX əsrin əvvəllərində Rusiya imperiyasının qanunlarına əsa-

sən ödənilirdi. Bu qanunlara görə vergi əslində ödəyicilərin insafından asılıydı və hər bir kəs gəlirinin məbləğini özü bildirməliydi. Yoxlama aparmaq qadağan edilmişdi. İllik gəlir min rubldan aşağı olduqda vergi verilmirdi. Min rubldan üç min rubla qədər gəliri olanlar 2 faiz vergi ödəyirdilər. Gəlir artdıqca vergi dərəcəsi də yüksəlirdi və 15 min rubldan artıq gəliri olan şəxslər 5 faiz vergi verməliydilər. Gəlir vergisinin ödənməsi üçün iki gün müəyyən edilmişdi: 30 iyun və 31 dekabr.




Bu günlərdən sonrakı 20 gün vergi məbləği dəyişməz qalırdı. Bu müddət ötdükdən sonra vergi məbləği üç ay ərzində 10 faiz, sonra isə 50 faiz artırılırdı.

Sovet hakimiyyəti illərində hər bir şəxsin maaşından 13 faiz çıxılırdı və bu gəlir vergisi hesab edilirdi.

Hazırda respublikamızda qüvvədə olan qanunlara görə gəlir vergisi rezident və qeyri-rezident fiziki şəxslərin gəlirlərindən tutulan vergidir. Rezident vergi ödəyicisinin gəliri onun ölkə daxilində və xaricində əldə etdiyi, qeyri-rezident ödəyicinin gəliri isə ölkə mənbələrində əldə etdiyi gəlirdən ibarətdir.

Gəlirlər müxtəlif cür olur. Bunlar üç yerə bölünür:

- muzdlu işlə əlaqədar əldə edilən gəlir;
- muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlir;
- vergilərdən azad edilən gəlirlərdən başqa bütün digər gəlirlər.

Muzdlu işə aid olmayan fəaliyyətdən gəlir sahibkarlıq fəaliyyəti və qeyrisahibkarlıq fəaliyyəti nəticəsində alına bilər. Qeyri-sahibkarlıq fəaliyyətindən gəlir faiz gəliri, divident, əmlakın icarəyə verilməsindən gəlir, royalti və s. hesab edilir.

> ***Divident*** *– səhmlərə görə müəssisənin illik gəlirindən ayrılan paya deyilir.*

> ***Səhm*** *– səhmdar cəmiyyətə vəsait qoyuluşunu təsdiqləyən qiymətli kağızdır.*

***Səhmdar cəmiyyət*** *– kapitalı payçıların vəsaitindən təşkil olunmuş müəssisədir.*

***Royalti*** *– lisenziyanın istifadə edilməsi nəticəsində iqtisadi səmərəyə görə dövri və ya cari haqq alınmasına deyilir.*




***Lisenziya*** *– ayrı-ayrı şəxslərə və ya təşkilatlara ixtiranı, biliyi, təcrübəni və s. istifadə etməyə görə verilmiş icazədir.*

Aylıq gəlirdən aşağıdakı dərəcələrlə vergi tutulur:
- 2000 manatadək olan gəlirdən 14 faiz;
- gəlirin 2000 manatdan yuxarı olan hissəsindən 30 faiz.




**MİSAL:** Aylıq gəlir 2250 manatdırsa, ödəniləcək gəlir vergisinin məbləğini hesablamalı.

***Həlli:*** 2000 manatadək olan hissəsindən 14 faiz, qalan 250 manatdan isə 30 faiz vergi ödənməlidir. Deməli, verginin ümumi məbləği

$$2000 \cdot 0{,}14 + 250 \cdot 0{,}30 = 280 + 75 = 355 \text{ (manat)}$$

olacaq.

İllik gəlirdən vergi dərəcələri aylıq gəlirdən vergi dərəcələrinə uyğundur:

- məbləği 24000 manata qədər olan illik gəlirdən 14 faiz;
- illik gəlirin 24000 manatdan yuxarı hissəsindən 30 faiz vergi tutulur.

Gəlir vergisinin hesablanmasına aid iki məsələyə baxaq.

*1.İllik gəlirin məbləği 37000 manat olmuşdur. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə görə, nə qədər vergi ödənməlidir? Bu məbləğdə vergi eyni dərəcə ilə ödənsəydi, vergi dərəcəsi neçə faiz olmalıydı?*

**Həlli:** Gəlirin 24000 manat məbləğindən 14 faiz vergi dərəcəsi ilə

$$24000 \cdot 0{,}14 = 3360 \text{ (manat)},$$

24000 manatdan çox olan hissəsindən yəni 13000 manatdan 30 faiz vergi dərəcəsi ilə

$$13000 \cdot 0{,}30 = 3900 \text{ (manat)}$$

vergi tutulmalıdır.

Beləliklə, ümumi məbləğ

$$3360 + 3900 = 7260 \text{ (manat)}$$

alınar.

Vergi dərəcəsi eyni olsaydı, onda

$$37000 \cdot X = 7260$$

bərabərliyi ödənməliydi (X – vergi dərəcəsini göstərir).

Onda

$$X = \frac{7260}{37000} = 0{,}1962.$$

Deməli, eyni vergi dərəcəsi 19,62 faiz olur.

*2. Vergi çıxıldıqdan sonra 1860 manat alan işçinin aylıq maaşı nə qədərdir?*

**Həlli:** Maaşın 2000 manata qədər olan hissədən 14 faiz vergi tutulmalıdır. Bu o deməkdir ki, maaş 2000 manat olsaydı, onun $2000 \cdot 0{,}14=280$ manatı çıxılardı və 1720 manat qalardı. Deməli, maaşın 30 faiz vergi çıxılan hissəsi də var. Həmin hissəni X ilə işarə etsək və nəzərə alsaq ki,

$$1860-1720=140 \text{ (manat)}$$

30 faiz vergi dərəcəsi olan hissəyə aiddir. Onda

$$X - 0{,}30 \cdot X = 140$$

bərabərliyindən

$$X = 200 \text{ (manat)}$$

olar.

Beləliklə, işçinin aylıq maaşı

$$2000 + 200 = 2200$$

manatdır.

## YOXLAMA TAPŞIRIQLARI

*1. Aşağıdakı suallara cavab verin:*

*- Gəlir vergisi nə vaxtdan tətbiq edilməyə başlanmışdır?*

*- Gəlirlər neçə cür olur?*

*- Gəlir vergisi Azərbaycan Respublikası Vergi Məcəlləsinə görə hansı vergi dərəcələri ilə tətbiq edilir?*

- *İnkişaf etmiş ölkələrdə gəlir vergisinin ən yüksək dərəcələri barədə nə deyə bilərsiniz?*

*2. Divident, səhm, royalti, lisenziya anlayışlarını izah edin.*

*3. Aylıq gəlir 1790 manatdırsa, ödəniləcək gəlir vergisinin məbləği çıxıldıqdan sonra işçi nə qədər maaş almalıdır?*

*4. Müəyyən fiziki şəxs illik gəlirindən 4440 manat gəlir vergisi ödəmişdir. Onun illik gəliri nə qədər olmuşdur?*

•

# 6. MƏNFƏƏT VERGİSİ

## 6.1.Ümumi gəlir və ümumi mənfəət

Dünya ölkələrində əsas vergilərdən biri də hüquqi şəxslərin mənfəət vergisidir. Bunun səbəbi isə çox sadədir: mənfəət iqtisadiyyatda mühüm rol oynayır, təsərrüfat fəaliyyətinin məqsədini müəyyən edir.

Hər bir işgüzarlığın ilkin şərti gəlir götürməkdir. İnsanlar yaşamaq üçün maddi nemət istehsal etməli və ya bu neməti təbiətdən almağı bacarmalıdırlar.

Nemət istehsalı isə resurslar tələb edir. Məsələn, çörək bişirmək üçün un, maya və su lazımdır. Maşın istehsalı üçün polad, rezin, plastik maddələr tələb olunur. Əsas işi isə, əlbəttə, avadanlıqlardan istifadə edə bilən insanlar görürlər.

İqtisadiyyatda istehsalın hər bir formasına dörd amil təsir edir: əmək, resurslar, kapital və sahibkarlıq qabiliyyəti. Sonuncu amil daha mühüm əhəmiyyətə malikdir, çünki bu qabiliyyət digər üç amili birləşdirib işi təşkil edir. Mənfəət isə sahibkarın istedadının, təşkilatçılıq bacarığının, kapitalı səmərəli istifadə edib etməməsinin nəticəsində alınır.

Mənfəət – gəlir ilə xərcin fərqi kimi təyin edilir.

Vergi ümumi mənfəətdən tutulur, ümumi mənfəət isə ümumi gəlirlə əlaqədardır.

***Ümumi gəlir*** *– məhsulun (işin, xidmətin) satışından, müəssisənin əsas fondlarından (torpaq sahələri də bura daxildir) və digər əmlakından, habelə qeyri-satış əməliyyatlarından alınan bütün gəlirlərin cəmidir.*

***Ümumi mənfəət*** *– ümumi gəlirdən bütün əməliyyatlar üçün çəkilən xərcləri çıxdıqda alınan məbləğdir.*

Göründüyü kimi, vergiyə cəlb olunan ümumi mənfəət aşağıdakılardan ibarətdir:

- məhsul satışı, görülən iş və göstərilən xidmətlərdən əldə olunan mənfəət;
- əsas fondlar (torpaq sahəsi də daxil olmaqla) və digər əmlakın satışından əldə olunan mənfəət;
- qeyri-satış əməliyyatlarından əldə olunan və bu əməliyyatların xərcləri qədər azaldılan gəlir.

Məhsul satışından əldə edilən mənfəətə aid sadə bir misala baxaq.

Tutaq ki, bir qələmin satış qiyməti 1,50 manat, onun hazırlanması üçün çəkilən xərclər 1,10 manatdır. Onda aşkardır ki, bir qələmdən alınan mənfəət

$$1{,}50 \text{ (manat)} - 1{,}10 \text{ (manat)} = 0{,}40 \text{ (manat)}$$

olacaq.

Əgər 1000 ədəd qələm satılıbsa, onda ümumi mənfəət

$$0{,}40 \cdot 1000 = 400 \text{ (manat)}$$

təşkil edəcək.

Aşkardır ki, qələm hazırlanan materialın bahalaşması, yaxud ucuzlaşması alınan mənfəətin məbləğinə təsir edəcək. Məsələn, bir qələmin hazırlanması üçün çəkilən xərclər 1,35 manat olsa, onda ümumi mənfəət xeyli azalar:

$$1000 \cdot (1{,}50 - 1{,}35) = 150 \text{ (manat)}.$$

Əksinə, çəkilən xərclər azaldıqda, məsələn, 90 qəpik olduqda, ümumi mənfəət artacaq:

$$1000 \cdot (1{,}50 - 0{,}90) = 600 \text{ (manat)}$$

Eyni qayda ilə satış qiyməti azaldıqda və ya artdıqda, yaxud buraxılan məhsulun həcmi dəyişdikdə də mənfəətin məbləği dəyişəcək.

Gəlirlər müxtəlif olduğu kimi, xərclər də müxtəlifdir. Xərclərin bir hissəsi dəyişməz qalır – onlara sabit xərclər

deyirlər, qalanları isə dəyişir. Məsələn, idarə işçilərinin maaşı, icarə haqqı, avadanlığın istifadəsi xərcləri dəyişmir. İstehsal həcminin artıb azalması nəticəsində isə bəzi xərclər dəyişir. Məsələn, xammal xərcləri, istehsalda iştirak edən işçilərin əmək haqqı dəyişən xərclərdir. Bu dəyişməni qısaca belə ifadə etmək olar: çox iş gördükdə xərc çox olur, az iş gördükdə isə xərc az olur.

## 6.2.Hüquqi şəxslərdən mənfəət vergisi

Mənfəət vergisinin yaşı o qədər də çox deyil. Bu vergi ilk dəfə XIX əsrin axırlarında tətbiq olunmağa başlanmışdır.




Həmin dövrdə səhmdar cəmiyyətlər yenicə yaranırdı. Bu cəmiyyətlər üçün mənfəətin dəqiq hesablanması və səhmdarlar arasında bölünməsi mühüm əhəmiyyətə malik

idi. Bu mənfəətdən vergi ödənilməsi təbii bir tələbat kimi meydana çıxdı.

Hüquqi şəxslərdən mənfəət vergisinin dərəcəsi müxtəlif ölkələrdə bir-birindən kəskin surətdə fərqlənir.

Amerika Birləşmiş Ştatlarında bu vergi mütərəqqi sistem üzrə tətbiq edilir. Müəssisənin illik gəliri 50 min dollardan çox deyilsə, vergi dərəcəsi 15 faiz, 50 min dollardan 75 min dollara qədər olduqda 25 faiz, 75 min dollardan yuxarı olduqda isə 34 faiz qəbul olunmuşdur.

Almaniyada mənfəət vergisi iki dərəcə ilə ödənilir. Mənfəət səhmdarlar arasında bölünürsə 36 faiz, bölünmürsə, 56 faiz vergi tutulur.

Böyük Britaniya və Yaponiyada da bu verginin dərəcələri kifayət qədər yüksəkdir. Böyük Britaniyada 35 faiz vergi dərəcəsi tətbiq olunur. Yaponiyada isə 100 milyon iyendən yuxarı (110 iyen təqribən 1 ABŞ dollarıdır) kapitalı olan hüquqi şəxslər 37,5 faiz mənfəət vergisi ödəyirlər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə görə, müəssisələrin mənfəətindən 20 faiz dərəcəsi ilə vergi tutulur.

Mənfəətin məbləğinə həm müəssisənin fəaliyyətinin, həm də xarici mühitin təsiri vardır.

Müəssisənin fəaliyyəti aşağıdakı amillərdən asılıdır:

- Məhsul istehsalı həcminin artması;
- məhsul istehsalına məsrəflərin azalması;
- məhsulun keyfiyyətinin yaxşılaşdırılması və onun çe-

şidinin genişləndirilməsi;
- istehsal fondlarının istifadə edilməsinin səmərəliliyinin artırılması;
- əmək məhsuldarlığının yüksəldilməsi.

Xarici mühitin amillərini iki yerə bölmək olar:
-təbii, coğrafi, nəqliyyat şərtləri;
- ölkədə siyasi, ictimai və iqtisadi vəziyyət.

Məhsul istehsalında ümumi mənfəətin hesablanması qaydasını göstərək.

*Məhsulun satış qiymətindən vergilər (aksiz və əlavə dəyər vergiləri) çıxıldıqda alınan məbləğ **ümumi gəlir** adlanır.*

*Ümumi gəlirdən məhsul istehsalı üçün çəkilən xərcləri (məhsulun maya dəyərini) çıxsaq, **ümumi mənfəət** alınır.*

Aşkardır ki, aşağıdakı bərabərliklər doğrudur:

$c = g - x,$

$g = q - a - D,$

burada $c$ - ümumi mənfəət, $g$ - ümumi gəlir, $x$ - məhsulun maya dəyəri, $q$ - məhsulun satış qiyməti, $a$ - aksiz, $D$ - əlavə dəyər vergisidir.

Mənfəət vergisi aşağıdakı düsturdan tapılır:

$$U_c = m\,(g - x),$$

burada m - mənfəət vergisinin dərəcəsidir.

Mənfəət çəkilən xərclərdən asılı olduğundan, maya dəyərinin süni artırılması mənfəətin və beləliklə də mənfəət vergisinin azalmasına səbəb olur. Ona görə bəzi ölkələrdə bu barədə müəyyən normalar qəbul edilmişdir. Sahibkar reklama və işgüzar səfərlərə istədiyi qədər xərc çəksə də, məbləğin hamısını maya dəyərinə daxil edə bilməz. Onun müəyyən hissəsi xalis gəlirdən ödənməlidir.

> ***Xalis gəlir*** *– müəssisənin öhdəsində qalan gəlirə deyilir.*

Mənfəət vergisinin hesablanmasına aid bir misala baxaq.

Müəssisə bir il ərzində 2000 ədəd radioqəbuledici istehsal etmişdir. Hər radioqəbuledicinin satışından gəlir 320 manat, onun istehsalı, daşınması və s. ilə bağlı xərclər 272 manat olmuşdur. Mənfəət vergisinin ümumi məbləği nə qədərdir?

Radioqəbuledicilərin satışından ümumi gəlir

$$g = 2000 \cdot 320 = 640000 \text{ (manat)},$$

ümumi xərclər isə

$$x=2000\cdot 272=544000 \text{ (manat)}$$

olacaq.

Ümumi mənfəəti hesablayaq:

$$c = 640000 - 544000 = 96000 \text{ (manat)}.$$

Vergi dərəcəsinin m =0,20 olduğunu nəzərə alsaq,

$$U_c=0,20 \cdot 96000=19200 \text{ (manat)}$$

mənfəət vergisi dövlət büdcəsinə ödənməlidir.

## YOXLAMA TAPŞIRIQLARI

*1.Aşağıdakı suallara cavab verin:*

- *Ümumi gəlir nədir? Ümumi mənfəət ümumi gəlirdən nə ilə fərqlənir?*
- *İstehsala təsir edən amillər hansılardır?*
- *ABŞ-da mənfəət vergisi hansı sistem üzrə tətbiq edilir?*
- *Respublikamızda mənfəət vergisinin dərəcəsi neçə faizdir?*

*2.Bir cüt ayaqqabının istehsalı, daşınması və s. ilə bağlı xərclər 22 manat təşkil edir, satış qiyməti isə 30 manatdır. Bu növdən olan 1000 cüt ayaqqabının satışından mənfəət vergisinin məbləğini hesablayın.*

# 7. ƏLAVƏ DƏYƏR VERGİSİ

## 7.1. Əlavə dəyər və əlavə dəyər vergisi

Əlavə dəyər vergisi malların istehsalı, işlərin görülməsi, xidmətlərin göstərilməsi prosesində dəyərə əlavənin bir hissəsinin büdcəyə daxil edilməsi formasıdır.

İstifadə etdiyimiz bütün əşyalar (paltar, kitablar, televizor, telefon və s.) bir və ya bir neçə müəssisənin ümumi məhsuludur.

Misal olaraq, kostyumu götürək. Kostyum tikmək üçün əsas material parçadır. Bundan əlavə, düymələr, sap və digər yardımçı materiallardan da istifadə edilir. Son məhsulu hazırlamış tikiş müəssisəsi cari məsrəfləri (işçilərə maaşı, kredit faizlərini və digər xərcləri), habelə istifadə etdiyi materialların xərcini nəzərə almaqla bərabər həm də mənfəət əldə etməlidir.

Fərz edək ki, müəssisə bir ədəd hazır məhsul üçün aşağıdakı xərcləri çəkmişdir:

a) Alınan məhsullar:
parça – 45 manat,
sap – 5 manat,
yardımçı materiallar – 15 manat.

Cəmi - 65 manat.

b) Tikiş prosesində müəssisənin çəkdiyi xərclər:
əmək haqqı – 40 manat,
digər cari məsrəflər – 42 manat,
mənfəət – 13 manat.

Cəmi – 95 manat.

Deməli, kostyumun satış qiyməti
65 manat + 95 manat = 160 manat olacaq.

Tikiş müəssisəsinin çəkdiyi xərclər, yəni 95 manat əlavə dəyər hesab edilir.

Hər bir müəssisə əlavə dəyərdən vergi verməlidir. Bu vergi əlavə dəyər vergisi (ƏDV) adlanır.

Dolayı vergi olan əlavə dəyər vergisi ilk dəfə 1958-ci ildə Fransada iqtisadçı M.Lore tərəfindən təklif olunmuşdur. Bu vergi dövriyyə vergisi deyilən vergini əvəz edir. Dövriyyə vergisi malların satışının və xidmət göstərilməsinin müəyyən mərhələlərində alınırdı.

Əlavə dəyər vergisi də çoxpilləli vergidir. O, məhsul istehsalının və göndərilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin bütün mərhələlərində ödənir.

Əlavə dəyər aşağıdakı düsturlarla hesablanır:

$d = a + b + c,$
$d = q - p,$

burada
a – müəssisənin işçilərinin aldığı əməkhaqqı,
b – digər cari məsrəflər,
c – mənfəət,
q – məhsulun satış qiyməti,
p – əvvəlki əmək məsrəflərinin qiymətidir.

ƏDV üçün iş, xidmət və sairədən asılı olaraq, müxtəlif vergi dərəcələri tətbiq edilə bilər. Əgər $\alpha$ ƏDV-in qanunla müəyyən edilmiş dərəcəsidirsə, onda bu vergi aşağıdakı dörd üsuldan biri ilə hesablana bilər:

1. $D = \alpha\ (a + b + c)$,
2. $D = \alpha a + \alpha b + \alpha c$,
3. $D = \alpha\ (q – p)$,
4. $D = \alpha q - \alpha p$.

## 7.2. Əlavə dəyər vergisinin müxtəlif ölkələrdə dərəcələri

Əlavə dəyər vergisi Fransa dövlətinin mühüm gəlir mənbələrindən biridir. Hazırda orada bütün vergilərin ümumi məbləğinin 45 faizi əlavə dəyər vergisinin payına düşür. 1988-ci ilə qədər Fransada ƏDV-in yeddi dərəcəsindən istifadə edilirdi. Həmin ildə aşağıdakı dörd dərəcə saxlanmışdı:

1. Zəruri tələbat malları və xidmət növləri üçün – 5,5 faiz;
2. Çoxişlənən mədəni mallar (məsələn, kitablar) üçün – 7 faiz;
3. Malların və xidmətlərin bütün növləri üçün normal dərəcə – 18,6 faiz;
4. Bəzək əşyaları, avtomobillər, spirtli içkilər və tütün məhsulları üçün artırılmış dərəcə – 33,33 faiz.

Bu ölkədə vergi dərəcələrinin sayının və səviyyəsinin azaldılması sonrakı illərdə də davam etdirilmişdir. Bir il sonra 1989-cu ildə üç dərəcə ilə – 5,5 faiz, 18,6 faiz və 28 faiz dərəcələri ilə vergi ödənilməyə başlandı. Hazırda normal 18,6 faiz və azaldılmış 5,5 faiz dərəcələri ilə vergi tutulur.

Rusiya Federasiyasında da iki dərəcədən istifadə edilir. Bəzi yeyinti məhsullarının və uşaqlar üçün istehsal edilmiş malların vergi dərəcəsi 10 faiz, qalan bütün məhsul və xidmətlərin vergi dərəcəsi isə 20 faizdir.

Azərbaycan Respublikasında isə yalnız bir dərəcə – 18 faiz qəbul edilmişdir.

Yuxarıda göstərilən misal üçün əlavə dəyər vergisini hesablayaq:

a = 40 manat, b = 42 manat, c=13 manat,
q = 160 manat, p = 65 manat

qiymətlərini nəzərə alsaq, əlavə dəyər

$$d = 40 + 42 + 13 = 95 \text{ (manat)},$$

yaxud

$$d = 160 - 65 = 95 \text{ (manat)}$$

olacaq.

Əlavə dəyər vergisini müxtəlif düsturlarla hesablayaq:

1. $D = 0{,}18\,(40 + 42 + 13) = 0{,}18 \cdot 95 = 17{,}10$ (manat);

2. $D = 0{,}18 \cdot 40 + 0{,}18 \cdot 42 + 0{,}18 \cdot 13 = 7{,}2 + 7{,}56 + 2{,}34 = 17{,}10$ (manat);

3. $D = 0{,}18 \cdot (160 - 65) = 0{,}18 \cdot 95 = 17{,}10$ (manat);

4. $D = 0{,}18 \cdot 160 - 0{,}18 \cdot 65 = 28{,}80 - 11{,}70 = 17{,}10$ (manat).

Hazırda ƏDV müxtəlif ölkələrdə bir-birindən fərqli dərəcələrlə tətbiq olunur. Büdcələrin gəlirində onun payı çox böyükdür. Yalnız ABŞ-da və Avstraliyada əlavə dəyər vergisi alınmır.

Əgər əlavə dəyər vergisi əlavə dəyərə görə $\alpha$ dərəcəsi ilə ödənirsə, onun əlavə dəyər və əlavə dəyər vergisinin cəminə görə dərəcəsi $\gamma$ bundan fərqlənəcək. Çünki bu halda

$$\alpha \cdot d = \gamma\,(d + D)$$

bərabərliyindən, $D = \alpha \cdot d$ olduğunu nəzərə alsaq,

$$\alpha \cdot d = \gamma \ (d + \alpha \cdot d)$$

$$\gamma = \frac{\alpha}{1+\alpha}$$

olar. Əlavə dəyər vergisi respublikamızda qəbul olunduğu kimi 18 faiz dərəcəsi ilə tutulursa, onda

$$\gamma = \frac{0{,}18}{1+0{,}18} = \frac{0{,}18}{1{,}18} = 0{,}1525$$

alınar. Bu o deməkdir ki, əlavə dəyər və əlavə dəyər vergisinin cəminə görə vergi dərəcəsi əslində 18 fa-izdən xeyli aşağıdır – 15,25 faizdir.

## YOXLAMA TAPŞIRIQLARI

*1. Aşağıdakı suallara cavab verin:*
 - *Əlavə dəyər nədir?*
 - *Əlavə dəyər vergisi necə hesablanır?*

*2.Əlavə dəyər vergisinin hesablanma düsturlarını müqayisə edin və onların eynigüclü olduğunu göstərin.*

*3.Alınan materiallara çəkilən xərclər 360 manat və əlavə dəyər 186 manatdırsa, əlavə dəyər vergisini və istehsal olunan məhsulun qiymətini hesablayın.*

*4.Fərz edək ki, əlavə dəyər vergisinin dərəcəsi 20 faizdir. Əlavə dəyər və əlavə dəyər vergisinin cəminə görə vergi dərəcəsini hesablayın.*

# 8. AKSİZLƏR

## 8.1. Aksiz və aksizli mallar

XVII əsrin axırlarından başlayaraq, Avropa ölkələrində vergi sistemində birbaşa və dolayı vergilər fərqləndirilməyə başladı. Birbaşa vergilər gəlir vergisindən və adambaşına alınan vergidən (can vergisindən) ibarət idi. Dövlətin məsrəflərinin maliyyələşdirilməsində dolayı vergilər tədricən daha çox əhəmiyyət qazanırdı. Belə vergilərdən biri də aksiz idi.




***Aksiz*** *– bəzi malların satış qiymətinə bilavasitə daxil edilən vergidir.*

Aksizin tətbiq edildiyi ilk dövrlərdə onun dərəcələri 5 faizdən 25 faizə qədər dəyişirdi və bu dəyişmədə heç bir qanunauyğunluq yox idi. İstehlak mallarına qoyulan bu vergi xəzinəyə böyük məbləğdə gəlir versə də, ticarətin inkişafını müəyyən qədər ləngidirdi.

Rusiyada aksizlər XIX əsrin ikinci yarısından tətbiq edilir. Həmin dövrdə Azərbaycan Rusiya imperiyasının tərkibində idi və ona görə respublikamızda aksizlərdən istifadə o vaxtdan başlanmışdır.

Ölkəmizdə ilk aksizlər şəkər məhsullarına, spirtli içkilərə, tütün məmulatlarına, neft yağlarına aid edilmişdi.

Sovet hakimiyyətinin ilk illərindən həm Rusiyada, həm də Sovet İttifaqına daxil olan digər respublikalarda aksizlər ən çox istifadə olunan malların (duz, qənd, kerosin, kibrit və s.) qiymətinə daxil edilmişdi.

Hazırda aksizlər müxtəlif ölkələrdə bir-birindən fərqli satış məhsullarına aid edilsə də, onların əksəriyyətində spirtli içkilər və tütün məmulatları aksizli malların siyahısında əsas yer tutur. Bunlardan əlavə, məsələn, Rusiyada avtomobillərin və zərgərlik məmulatlarının, İtaliyada neft və neft məhsullarının, ABŞ-da odlu silahların satış qiymətlərinə də aksizlər əlavə olunur.

Respublikamızda aşağıdakı mallar aksizli mallara aid edilir:

- içməli spirt, pivə və spirtli içkilərin bütün növləri,
- tütün məmulatları;

- neft məhsulları;

- minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla);

- istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə görə idxal edilən aksizli mallara aksizlərin dərəcələri icra hakimiyyəti orqanı olan Nazirlər Kabinetinin qərarı ilə müəyyən edilir. Aksizli mallar istehsal edildikdə hər ay üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Aksiz əlavə dəyər vergisi kimi dolayı vergi olsa da, onun fərqli xüsusiyyətləri də vardır. Bu xüsusiyyətlər aşağıdakılardır:

1. Aksizlər yalnız malların satışına aiddir və bu malların siyahısına cəmisi bir neçə adda mal daxil olur.

2. Aksizlər əsasən istehsal sahəsinə və bəzi malların idxalına aid olur.

Aksizlər dolayı vergilərin digər növləri kimi həm dövlət büdcəsinə vəsaitin daxil olmasını təmin edir, həm də istehsal sahəsinə tənzimləyici təsir göstərir. Bəzi yüksək rentabelli məhsulların istehsalından həddindən artıq gəlir götürülməsinin qarşısını almaq üçün aksizlərin rolu əvəzsizdir. Məsələn, spirtli içkilərin pərakəndə satış qiymətləri elə bir səviyyədədir ki, dövlət büdcəsinə alınan gəlirin

müəyyən hissəsi ödənilməsə, istehsalçı müəssisələrin rentabelliyi dəfələrlə arta bilər. Bu da həmin müəssisələri digərlərinə görə daha əlverişli vəziyyətə gətirər.

***Rentabellik** – mənfəətin məsrəflərə nisbətini xarakterizə edən göstəricidir.*

Aksizlərin dərəcələri malların və onların istehsalında istifadə edilən xammalın, materialların, yarımfabrikatların və s. qiymətlərinə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanı olan Nazirlər Kabinetinin qərarı ilə dəyişdirilə bilər.

## 8.2. Aksizlərin hesablanması

Aksiz dərəcəsinə görə məhsulun satış qiymətini necə hesablamaq lazım olduğunu göstərək.

Tutaq ki, malın maya dəyəri m, mənfəət c, aksiz dərəcəsi β-dır. Satış qiymətini q ilə işarə etsək, aksiz nəzərə alınmasaydı, onda satış qiyməti $m + c$ olardı. Aksizin dərəcəsi $\beta$ olduğundan

$$q - \beta \cdot q = m + c$$

və buradan

$$q\,(1 - \beta) = m + c,$$

$$q = \frac{m + c}{1 - \beta}$$

alınar.

Məsələn, bir qutu siqaretin hazırlanmasına çəkilən xərclər 75 qəpik təşkil edirsə, gəlir 27 qəpik nəzərdə tutulubsa, aksiz dərəcəsi 15 faizdirsə, onda siqaretin satış qiyməti

$$q = \frac{0{,}75 + 0{,}27}{1 - 0{,}15} = \frac{1{,}02}{0{,}85} = 1{,}20 \text{ (manat)}$$

olacaq.

Aksiz dərəcəsinin qiymətə necə güclü təsir etdiyini baxılan misal üzərində izah edək. Əgər

$\beta$ = 50 faiz olsa, məhsulun satış qiyməti

$$q = \frac{1{,}02}{1\text{-}0{,}5} = 2{,}04 \text{ (manat)}$$

$\beta$ = 60 faiz olsa,

$$q = \frac{1{,}02}{1\text{-}0{,}6} = 2{,}55 \text{ (manat)}$$

$\beta$= 80 faiz olsa,

$$q = \frac{1{,}02}{1\text{-}0{,}8} = 5{,}10 \text{ (manat)}$$

alınar.

Beləliklə, aksiz dərəcəsi 15 faiz əvəzinə 50 faiz olsa, siqaretin satış qiyməti 1,7 dəfə, 50 faiz əvəzinə 60 faiz olsa, 1,25 dəfə, 60 faiz əvəzinə 80 faiz olsa, 2 dəfə artacaq.

Aksizlərdən yayınma hallarının aradan qaldırılması üçün ölkəmizdə istehsal olunan və xaricdən gətirilən spirt, spirtli içkilər, tütün məmulatları üçün xüsusi aksiz markaları tətbiq edilir. Bu cür markanın olması onu göstərir ki, alınan məhsul qanuni yolla ölkəyə gətirilmişdir və ya gizli şəkildə istehsal olunmamışdır. Aksizli malları markasız idxal etmək, satış üçün saxlamaq və ya satmaq qanunlarla qadağandır və bu cür mallar dövlət tərəfindən müsadirə olunur.

Aksizin məbləğini hesablamaq üçün düstur çıxaraq. Bu məbləğ məhsulun satış qiymətinin üzərinə əlavə olunduğundan

$$(m + c) + A = q$$

alınar. Onda

$$A = q - (m + c)$$

aksizin məbləğidir.

Satış qiymətinin ifadəsini yerinə yazaq:

$$A = \frac{m+c}{1-\beta} - (m+c) = (m+c) \cdot \frac{1-(1-\beta)}{1-\beta},$$

$$A = m+c \cdot \frac{\beta}{1-\beta}\ .$$

Əgər q məlumdursa,

$$A = q - (m + c),$$

məlum deyilsə,

$$A = m+c \cdot \frac{\beta}{1-\beta}$$

düsturundan istifadə etmək lazımdır.

Aksizlərin hesablanmasına aid iki məsələyə baxaq:

*1. Aksiz nəzərə alınmadan satış məhsulunun qiyməti 62,65 manatdır. Aksizin dərəcəsi $\beta = 30\%$ olsa aksizin məbləğini hesablamalı.*

***Həlli:***

Məsələni iki üsulla həll etmək olar:

a) $q = \dfrac{m + c}{1 - \beta}$

düsturundan istifadə etsək və

$$m + c = 62{,}65 \text{ manat}$$

olduğunu nəzərə alsaq, satış qiyməti

$$q = \frac{62{,}65}{1-0{,}30} = \frac{62{,}65}{0{,}7} = 89{,}50 \text{ (manat)}$$

olar.

Aksizin qiymətini hesablayaq:

$$A= 89{,}50 - 62{,}65 = 26{,}85 \text{ (manat)}$$

b) Aksizin məbləğinin hesablanması düsturundan istifadə edək:

$$A = \frac{0{,}30}{1-0{,}30} \cdot 62{,}65 = \frac{0{,}3 \,.\, 62{,}65}{0{,}7} = 26{,}85 \text{ (manat).}$$

Hər iki halda eyni məbləğ alınır.

*2. Məhsulun maya dəyəri 145 manat, mənfəət 20 faiz nəzərdə tutulubsa, aksiz dərəcəsi 40 faiz olduqda malın aksizinin məbləğini hesablayın.*

***Həlli:***

Əvvəlcə aksiz nəzərə alınmadan məhsulun satış qiymətini hesablayaq:

$$m + c = 145 + 145 \cdot 0{,}20 = 145 + 29 = 174.$$

Aksiz məbləğinin hesablanma düsturunu tətbiq edək:

$$A = 174 \cdot \frac{0{,}40}{1-0{,}40} = \frac{69{,}6}{0{,}6} = 116 \text{ (manat).}$$

## YOXLAMA TAPŞIRIQLARI

*1. Aşağıdakı suallara cavab verin:*

- *Aksiz nədir?*
- *Aksizlər respublikamızda hansı mallara aid edilmişdir?*
- *Aksizin digər dolayı vergilərdən fərqi nədədir?*

*2.İstehsal olunmuş malın maya dəyəri 398 manat, mənfəəti 82 manat, aksiz dərəcəsi 25 faiz olduqda satış qiymətini və aksizin məbləğini hesablayın.*

•

# 9. DÖVLƏT RÜSUMLARI

## 9.1. Dövlət rüsumları nə üçün tutulur?

Rüsum, yəni dövlətin vətəndaş, yaxud onun ailəsi və təsərrüfatı üçün gördüyü işə görə pul ödənişi verginin ən qədim formasıdır. Dövlətlərin əmələ gəlməsinin ilk dövrlərindən yardım könüllü və müəyyən məqsəd üçün edildiyindən əhalidən yalnız müxtəlif rüsumlar alınardı. Təbəələrdən vergi yığmaq onları təhqir etmək hesab olunurdu. Dövlət xəzinəsinə, əsasən, müharibədə məğlub olmuş ölkənin əhalisindən alınan təzminat, yəni bac-xərac daxil olurdu.

Vergilərin məcburi ödəmə kimi tətbiqindən sonra da rüsumlar saxlanıldı və indiyə qədər də qalmaqdadır.

Müasir dövrdə dövlət rüsumları nədir?



***Dövlət rüsumları** – həm hüquqi, həm də fiziki şəxslərdən hüquqi əhəmiyyəti olan işlərin görülməsi üçün alınan vergidir.*




Hər bir şəxs ömrü boyu elə vəziyyətlərlə qarşılaşır ki, dəfələrlə hüquqi əsası olan əməliyyatlar yerinə yetirilməli və ona müəyyən sənədlər verilməli olur.

İnsanın dünyaya gəlməsi faktı qanunla müəyyən edilmiş qaydada qeydiyyatdan keçirilməlidir. Uşaq doğulanda ata və ana sevinirlər və müvafiq sənəd almaq üçün vətəndaş vəziyyəti aktlarının qeydiyyatı ilə məşğul olan dövlət orqanına müraciət edirlər. Onlara doğum haqqında şəhadətnamə verilir.




Yaxud, iki gənc ailə qurmaq istəyir. Evlənmək haqqında şəhadətnaməni də vətəndaş vəziyyəti aktlarının qeydiyyat orqanı verir.

Ümumiyyətlə, insanın doğulduğu gündən ta ölüm gününə qədər bütün mühüm hadisələr müvafiq surətdə qeyd olunmalı və sənəd verilməlidir. Doğum, ölüm, evlənmə, adın və soyadın dəyişdirilməsi və s. üçün sənədlər tərtib olunur və hər bir sənəd alındıqda dövlətin müəyyən etdiyi qaydada rüsum ödənilir.

Lakin rüsumlar təkcə insan həyatındakı dəyişikliklər qeyd etdirildikdə alınmır. Pasport və şəxsiyyət vəsiqəsi aldıqda, müəyyən sənəd itirildikdə yenisinin verilməsi üçün, müxtəlif növ arayışlar üçün rüsumlar ödənilməlidir.

Dövlət rüsumları məhkəməyə müraciət etdikdə də alınır. Rüsumların məbləği hüquqi işin və verilən sənədin xarakterindən asılıdır. Əmlak iddiasıyla əlaqədar məhkəməyə müraciətlərdə iddianın məbləği göstərilməlidir və rüsum bu məbləğ ilə müəyyən olunur.

Bəs iddianın məbləği dedikdə nə nəzərdə tutulur?

Əgər iddiada pul tələb olunursa, həmin pulun məbləği, əmlak tələb olunursa, həmin əmlakın dəyəri iddianın məbləği hesab edilir.

Dövlət rüsumu haqqında Azərbaycan Respublikasının Qanununa görə dövlət rüsumu aşağıdakı hallarda tutulur:

- məhkəməyə verilən iddia ərizələri üçün və məhkəmə tərəfindən sənədlərin surətinin verilməsi üçün;
- iqtisad məhkəmələrinə verilmiş iddia ərizələri üçün və onların qərarları barədə şikayətlər üçün;
- notariat kontorları və yerli idarəetmə orqanları tərəfindən notariat əməliyyatları aparılarkən;
- vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı, bunlarda əlavələr və dəyişikliklər edilməsi üçün;
- vətəndaşlara şəxsiyyət vəsiqəsi verilərkən, vətəndaşlığa qəbul və ya vətəndaşlıqdan çıxma zamanı;
- patentlərin verilməsi üçün;
- ov icazələrinin verilməsi üçün;
- hüquqi şəxslərin qeydiyyatı və təkrar qeydiyyatı üçün;
- bəzi sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsi üçün;

- əmlaka, mülkiyyət hüququna, o cümlədən torpağa mülkiyyət və istifadə hüququna dair sənədlərin verilməsi üçün;
- qiymətli kağızların emissiya prospektinin qeydə alınması üçün (özəlləşdirmə qaydasında qeydə alınma halları istisna olmaqla).

Dövlət rüsumunun tutulduğu halların siyahısında bir neçə yeni anlayışdan da istifadə olunmuşdur.




***Patent** – ixtiraçının ixtira hüququnu təsdiq edən vəsiqəyə deyilir.*

***Prospekt** – çoxmənalı sözdür. Şəhərdə böyük və geniş küçə mənasından başqa həm də plan, proqram, elan, reklam, ticarət preyskurantı (malların qiymət siyahısı) mənalarında da istifadə olunur.*

Bəs notariat əməliyyatları nə deməkdir?

Dünya ölkələrində notariuslar xüsusi əhəmiyyəti olan hüquqi işlər görürlər. Bu işlərə notariat əməliyyatları da deyirlər.




***Notarius*** *– ali hüquqi təhsilli, ixtisas imtahanı vermiş və praktiki fəaliyyət təcrübəsi olan vəzifəli şəxsdir.*

Hüquqi və fiziki şəxs tərəfindən tərtib edilmiş sənədin hüquqi qüvvəyə malik olması üçün onu notarius təsdiq etməlidir. Bu cür sənədlər müxtəlif xarakterli ola bilər. Məsələn, etibarnamə, alış-satış müqaviləsi, borc müqaviləsi, vəsiyyətnamə və s.

Bəzən mövcud sənədin surəti tələb olunur. Əgər notarius sənədin surətini təsdiq edirsə, həmin surət də hüquqi qüvvəyə malik olur.

Notarius əmlakın bölünməsi, onun övladlara, valideynlərə, həyat yoldaşına bağışlanması haqqında müqavilə də tərtib edə bilər.

Əgər yaşayış məntəqəsində notarius yoxdursa, onda müvafiq icra hakimiyyəti orqanlarına müraciət edilir.

Dövlət rüsumunun dərəcələrini və ödənilməsi qaydasını Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

## 9.2. Dövlət rüsumlarının dərəcələri

Azərbaycan Respublikasında tətbiq edilən bəzi dövlət rüsumlarının dərəcələrini göstərək:

- məhkəmə əmri haqqında ərizələrdən – 10 manat ;
- məhkəmə aktlarının təkrarən verilməsinə görə – 6 manat;
- nikahın qeydə alınması üçün – 5 manat;
- soyadın, adın və ata adının dəyişdirilməsinin qeydiyyatı üçün – 3 manat;
- nəqliyyat vasitələrinin özgəninikiləşdirilməsi və ona sərəncam verilməsi ilə bağlı etibarnamələrin təsdiqi üçün; etibarnamə ərə (arvada), uşaqlara, valideynlərə, babaya, nənəyə, nəvəyə, qardaşa, bacıya verilərsə – 5 manat, digər vətəndaşlara və ya hüquqi şəxslərə verilərsə – 10 manat.

Azərbaycan Respublikası vətəndaşlarına xaricə getmək hüququ verən ümumvətəndaş pasportların verilməsinə və ya dəyişdirilməsinə görə: beş iş günündə verildikdə və ya dəyişdirildikdə 120 manat, daha artıq müddətdə verildikdə və ya dəyişdirildikdə – 40 manat.

Qanunda dövlət rüsumundan azad olunma halları da nəzərdə tutulmuşdur.

Əməyin ödənilməsi və əmək fəaliyyəti ilə bağlı digər tələblər üzrə, aliment alınması barədə iddialar üzrə, müəlliflik hüququndan, habelə kəşf, ixtira, səmərələşdirmə təklifi və sənaye nümunələri üçün hüquqdan əmələ gələn iddialar üzrə – iddiaçılar rüsumu ödəməkdən azad olunurlar. Dövlətə öz əmlakını bağışlayan vətəndaşlar, müəssisə və təşkilatlar, diplomatik pasportlar alan Azərbaycan Respublikası vətəndaşları, xaricə getmək üçün verilən sənəd üçün 16 yaşına çatmamış şəxslər də dövlət rüsumu ödəmirlər.

Azərbaycan Respublikasının şəhər və rayon dövlət hakimiyyəti orqanları da ayrı-ayrı ödəyicilərə güzəştlər vermək hüququna malikdirlər.

Dövlət rüsumu tutulması qaydasına düzgün əməl olunmasına respublika Maliyyə Nazirliyi, Vergilər Nazirliyi və onların yerlərdəki orqanları nəzarət edirlər.

## 9.3. Gömrük rüsumu

Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən respublikamızın gömrük ərazisinə malların idxalı və ixracı zamanı gömrük rüsumu alınır. Əldə edilən vəsait də digər rüsumlar kimi dövlət büdcəsinə köçürülür.

Gömrük rüsumundan əlavə gömrük orqanları tərəfindən digər ödənişlər də alınır. Bunlardan bir neçəsini göstərək. Əlavə dəyər vergisi, aksizlər, malların saxlanmasına görə gömrük yığımları, gömrük rəsmiləşdirilməsinə görə yığımlar və s. belə ödənişlərdəndir.

Gömrük rüsumunun, aksizlərin və gömrük yığımlarının hesablanması üçün müəyyən edilən malların və nəqliyyat vasitələrinin gömrük dəyəri əsas götürülür.

Gömrük ödənişləri gömrük bəyannaməsi qəbul edilənə qədər və ya gömrük bəyannaməsinin qəbul edilməsi ilə eyni vaxtda ödənilir.

Gömrük ərazisində emal üçün istifadə edilmiş xarici mallar və onların məhsulları ixrac gömrük rüsumlarından azad edilir.

## YOXLAMA TAPŞIRIQLARI

*1.Aşağıdakı suallara cavab verin:*

- *Rüsum nə üçün verginin ən qədim formasıdır?*
- *Dövlət rüsumunun dərəcələri respublikamızda hansı orqan tərəfindən müəyyən edilir?*

*2.Respublikamızda dövlət rüsumunun tutulduğu hallardan bəzilərini sayın.*

*3.Patent, notarius, prospekt sözlərinin mənasını izah edin.*

# 10. VERGİ GÜZƏŞTLƏRİ

## 10.1. Gəlir vergisinə aid güzəştlər

Qanunlarda müəyyən vergi ödəyiciləri üçün güzəştlər də nəzərdə tutulur.

Belə güzəştlər, adətən, elə şəxslərə aid edilir ki, onlar vergi ödənilməsində öhdəliyi tam həcmdə yerinə yetirə bilmirlər. Bəzən isə güzəştlər fəaliyyətlərin müəyyən növlərinə həvəsləndirmək məqsədi daşıyır.

> ***Vergi güzəşti*** *– müəyyən verginin dərəcəsinin aşağı salınması, ödənmə üçün möhlət verilməsi və ya məbləğin hissə-hissə ödənilməsidir.*

Bəzi hallarda vergidən tamamilə azadolma halları da nəzərdə tutulmuşdur.

Fiziki şəxslərin gəlir vergisindən azad olunan gəlirlərindən bəzilərini göstərək:

- büdcə hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar;
- dəymiş zərərlərin ödənilməsi ilə bağlı kompensasiya ödənişləri;
- təqvim ili ərzində alınan hədiyyə, maddi yardım və

birdəfəlik müavinətin dəyərinin 1000 manatadək olan hissəsi;
- fiziki şəxsin əsas iş yerində əldə edilən aylıq gəliri 200 manatadək olduqda minimum əmək haqqı məbləğində olan hissəsi;
- alimentlər və s.

Kompensasiya – əvəzetmə, ödəmə, təzminat deməkdir. Təbii fəlakət və ya digər səbəblərdən fiziki şəxslərə zərər dəymişsə, onda həmin şəxslər müəyyən kompensasiya alır və alınan məbləğdən gəlir vergisi ödənmir.

Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının, I və II qrup müharibə əlillərinin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır.

Gəlir vergisinin ödənilməsində bir sıra başqa azadolmalar və güzəştlər də mövcuddur.

## 10.2. Mənfəət vergisindən və digər vergilərdən azadolmalar və güzəştlər

Respublikamızda hüquqi şəxslərin mənfəət vergisindən aşağıdakılar azad edilir:
- xeyriyyə təşkilatlarının gəliri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa);
- qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr;

- beynəlxalq, dövlətlərarası və hökumətlərarası təşkilatların gəlirləri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa):
- dövlət hakimiyyət orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının gəlirləri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa);
- Azərbaycan Respublikasının Milli Bankının və onun qurumlarının gəliri və s.

Bundan əlavə əlillərin ictimai təşkilatlarına məxsus olan, işçilərinin ümumi sayının azı 50 faizi əlillərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılır.

Orta məktəb dərslikləri, uşaq ədəbiyyatının və büdcədən maliyyələşdirilən dövlət əhəmiyyətli nəşrlərin istehsalı ilə bağlı olan redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti əlavə dəyər vergisindən azad edilir.

Fiziki şəxsin fərdi istehlakı üçün üç litr alkoqolik içkinin və üç blok siqaretin idxalı, respublikamızın ərazisindən tranzitlə daşınan mallar aksizdən azad edilir.

Əmlak, torpaq vergiləri üçün də bəzi güzəştlər və azad olmalar qanunvericilikdə nəzərdə tutulmuşdur.

Vergi orqanları vergi ödəyicisinin güzəştlərdən istifadə etmək hüququnun olmamasını və ya güzəştlərdən istifadə zamanı müəyyən qanun pozuntularına yol verildiyini aşkara çıxararsa, onda qanunvericiliyə uyğun olaraq maliyyə sanksiyaları tətbiq edə bilər.

Vergidən azadolma və vergi güzəştləri aşağıda göstərilən formalarda olur:

- vergidən azad edilmə;
- vergi tutulan bazadan müəyyən hissənin çıxılması;
- aylıq gəlirdən vergi tutulmayan minimumun təyin edilməsi;
- vergi tutulan məbləğdən müəyyən hissənin çıxılması;
- vergi dərəcələrinin azaldılması.

Bəzi misallar göstərək.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə görə Dövlət hakimiyyəti orqanları, büdcə təşkilatları, yerli özünü idarəetmə orqanları, əlillərin ictimai təşkilatları əmlak vergisini ödəməkdən azad edilirlər. Pensiyaçıların, müddətli hərbi xidmətdə olan qulluqçuların və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği 30 manat azaldılır.

Xaricdə müalicə haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 2000 manatadək olan hissəsi gəlir vergisindən azaddır.

Vergi tutulan məbləğdən müəyyən məbləğin çıxılmasına misal olaraq, mənfəətdən istehsal təyinatlı kapital qoyuluşunun maliyyələşdirilməsinə çəkilən xərclərin çıxılmasını göstərə bilərik.

Bəzən vergi dərəcələri də azaldılır. Məsələn, mənfəət vergisinə güzəşt kimi işçilərin ümumi sayının ən azı 50 fai-

zini əlillər təşkil edən müəssisələr üçün mənfəətdən verginin məbləğinin 50 faiz azaldılmasını yuxarıda göstərmişdik.

Vergidən azadolmalar və güzəştlər inkişaf etmiş ölkələrin qanunlarında da nəzərdə tutulur. Məsələn, Yaponiyada güzəştlər müəyyən regionun iqtisadi inkişafını həvəsləndirmək üçün tətbiq olunur. Fransada yeni yaradılmış səhmdar cəmiyyətlər iki il vergidən tamamilə azad edilir, sonrakı üç ildə isə gəlirin yalnız müəyyən faizindən vergi tutulur. Bu ölkədə həm də elmə qoyulan vəsait verginin azaldılmasına səbəb olur.

Dünyanın bir çox ölkələrində gəliri az olan şəxslər və xeyriyyə təşkilatları üçün vergi güzəştləri vardır.

Vergi güzəştləri bəzən vergidən yayınma hallarına səbəb olur. Məsələn, hüquqi şəxsin fəaliyyətinin təşkili zamanı vergi ödəyicisi elə qrupa keçməyə çalışır ki, orada ya vergi verilmir, ya da müəyyən güzəştlər mövcuddur.

Hər bir vergi növü üzrə hökumət ədalətlilik prinsipini mümkün qədər gözləməyə çalışır. Güzəştlər də müəyyən mənada bu prinsipə uyğun olaraq nəzərdə tutulur. Lakin ən ideal hal hamının eyni qanunla vergi ödəməsidir. Güzəştləri vergi sahəsindən büdcənin gəlirlərinin paylanması sahəsinə keçirmək daha ədalətli olardı.

Lakin təəssüf ki, müxtəlif səbəblərdən bunu etmək çox çətindir.

Ayrı-ayrı ödəyicilərə aid olan vergi güzəştlərindən

başqa dünyada müəyyən ərazilər üçün də güzəştlər mövcuddur. Xarici kapitalı öz ərazisinə cəlb etmək üçün ölkələr arasında rəqabət offşor mərkəzlərin və zonaların yaranmasına səbəb olmuşdur (ingiliscə *«offşor»* sahildən aralı deməkdir ).

Vergi güzəştləri ilə şirnikləndirilən şirkətlərin maliyyə kapitalı offşor ərazilərə daxil olur və bununla da iqtisadi potensialı və təbii ehtiyatları az olan kiçik dövlətlərdə əhalinin normal həyat səviyyəsi təmin edilir.

Offşor zonalara misal olaraq, Andorranı, Monakonu, Antil adalarını, Lüksemburqu, Bermud adalarını və s. göstərmək olar.

Offşor ərazilər inkişaf etmiş ölkələri çoxmilyardlı vergi daxilolmalarından məhrum edir. Ona görə də həmin ölkələr offşor zonalara kapital axınına qarşı mübarizə aparırlar.

## YOXLAMA TAPŞIRIQLARI

*1. Aşağıdakı suallara cavab verin:*
- *Vergi güzəşti nədir?*
- *Offşor ərazilər nə üçün yaradılmışdır?*

*2. Fiziki şəxslərin gəlir vergisindən azad olunan gəlirlərindən bir-neçəsini göstərin.*

*3. Mənfəət vergisindən azad olunan gəlirləri sayın.*

*4. Vergi güzəştlərinin tətbiq edilmə səbəblərini göstərin.*

# 11. VERGİ NƏZARƏTİ

## 11.1. Vergi qanunvericiliyinin pozulması

Azərbaycan Respublikasında vergilərin tam və vaxtında ödənilməsinə nəzarəti vergi orqanları həyata keçirirlər. Qanunla müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarının səlahiyyətləri yol vergisi və idxal-ixrac əməliyyatları sahəsində gömrük orqanlarına verilir.

Vergi Məcəlləsinə görə vergi orqanları vergilərin hesablanması və ödənilməsi ilə bağlı bütün maliyyə sənədlərini, hesabatları, vəsaitləri, qiymətli kağızları, bəyannamələri və digər sənədləri yoxlaya, vergi ödəyicilərindən və ya onun vəzifəli şəxslərindən lazımi izahatlar, arayışlar və məlumatlar ala bilərlər.

Əgər vergi qanunvericiliyi pozulursa, vergi ödəyiciləri cəzalandırılır.

Vergi qanunvericiliyinin pozulması dedikdə aşağıdakılar başa düşülür:

- Qanunla müəyyən edilmiş vergiləri ödəməmək;
- uçota alınmamaq;
- gəlirlərin (xərclərin) və vergitutma obyektlərinin uçotunu aparmamaq;
- müəyyən edilmiş hallarda və qaydada vergi hesabatını təqdim etməmək;

- vergi orqanlarının vəzifəli şəxslərinin qanuni tələblərini icra etməmək və onların qanuni fəaliyyətinin icra edilməsinə maneçilik törətmək;
- zəruri məlumatları və sənədləri təqdim etməmək;
- alınan gəlirlərin və ödənilən vergilərin sənədlərinin saxlanmasını təmin etməmək və s.

Vergi ödəyicilərinin fəaliyyətini əks etdirmək üçün müxtəlif tipli sənədlərdən istifadə edilir.

Vergi və mühasibat sistemində ilkin və törəmə sənədlər mövcuddur.

İlkin sənədlər dedikdə sənədlərin əsli başa düşülür. Misal üçün, mağazada ödəmə çeki, banklardan pulun daxil olmasını təsdiq edən qəbz və s. ilkin sənədlərdir.

Törəmə sənədlər ilkin sənədlər əsasında hazırlanır. Digər sənədlərdən fərqli olaraq vergi ödəyicilərinin fəaliyyətini xarakterizə edən sənədlərə ciddi hesabat sənədləri deyilir. Vergi orqanı əməkdaşlarına təqdim edilən sənədlər üç şərti ödəməlidir:

- sənədlər tam olmalıdır;
- sənədlərin əsli təqdim edilməlidir;
- sənədlərdəki məlumatlar doğru olmalıdır.

Sənədin tamlığı dedikdə vergi ödəyicisinin adı, ünvanı, telefonu, sənədin (çekin) adı, verilmə tarixi, əməliyyatın məzmunu, ölçü vahidi, miqdarı, qiyməti və ümumi miqdarı, bu sənədin saxlanması üçün məsul şəxsin vəzifəsi, soyadı və imzası başa düşülür.

Hər bir sənədin surətini çıxarmaq mümkündür. Əvvəl-

lər surətçıxaran qara kağızdan istifadə edilirdi. İndi çoxlu sayda və tipdə surətçıxaran avadanlıqlar var. Ona görə də hər bir hesabat sənədi təqdim edildikdə onun ilkin nüsxə olması vacib şərtdir.

Hesabat sənədlərinin doğruluğu da vacib şərtlərdən biridir. Çünki, sənədlərin doldurulması zamanı şübhə doğuran, təhrif olunmuş, saxtalaşdırılmış məlumatlardan istifadə edilməsi ehtimalı həmişə mövcuddur. Ona görə də bu sənədlərin tələb olunması zamanı vergi yoxlamasını həyata keçirən vergi orqanı əməkdaşları bu faktlara ciddi fikir verirlər.

## 11.2. Vergi yoxlamaları

Vergi orqanları vergilərin tam və vaxtında yığılmasını təmin etmək məqsədilə vergi nəzarətini həyata keçirirlər. Vergi nəzarəti vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotuna, habelə vergi qanunvericiliyinə riayət olunmasına vahid nəzarət sistemidir.

Vergi orqanları vergi nəzarətini əsasən vergi ödəyicilərinin uçot və hesabat məlumatlarını yoxlamaqla həyata keçirirlər.

Vergi yoxlamaları zamanı vergi orqanları tərəfindən Nazirliklər, komitələr, idarələr, dövlət müəssisə və təşkilatları, məhkəmə orqanları, mülkiyyət formasından və

mənsubiyyətindən asılı olmayaraq müəssisə və təşkilatlar, Azərbaycan Respublikasının vətəndaşları, xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər və s. yoxlanılır.

Vergi yoxlaması əsasən pul sənədlərini, mühasibat kitablarını, hesabatları, planları, smetaları, bəyannamələri, müqavilə və kontraktları, əmr və işgüzar yazışmaları, vergi və digər məcburi ödənişlərlə bağlı olan digər sənədləri əhatə edir.

Vergi yoxlamaları kameral və səyyar qaydada həyata keçirilir.

***Kameral vergi yoxlaması*** *- vergi orqanı tərəfindən yerlərə getmədən vergi ödəyicilərinin təqdim etdiyi hesabat sənədləri əsasında keçirilir.*

***Səyyar vergi yoxlaması*** *-vergi orqanı tərəfindən yerlərə getməklə həyata keçirilir.*

Hər iki halda yoxlamaların nəticələri müvafiq qaydada akt şəklində rəsmiləşdirilir və vergi ödəyicisinin yol verdiyi vergi qanunvericiliyinin pozulmasına görə pozuntunun xarakterindən asılı olaraq maliyyə, inzibati və digər cəzalara məruz qalır.

Vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicisinin məsuliyyətə cəlb edilməsi haqqında qərarla maliyyə sanksiyaları və faizlər tətbiq edilir.

> ***Sanksiya*** *dedikdə, qanun pozuntusunun nəticələrini əks etdirən hüquqi normalar və ya maddələr başa düşülür.*

Maliyyə sanksiyaları əsasən hesabatların vaxtında verilməməsinə və vergilərin azaldılmasına görə tətbiq edilir.

Faizlər isə ödənilmə vaxtı keçmiş vergilər üzrə tutulur.

Qeyd etmək lazımdır ki, bu cəzalardan başqa vergi qanunvericiliyinin pozulmasına yol vermiş vəzifəli şəxslər də məsuliyyət daşıyır və onlar inzibati qaydada cəzalandırılırlar.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş bəzi maliyyə sanksiyalarını göstərək.

Vergi hesabatını əsas olmadan müyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin, yaxud onun müavininin qərarına əsasən 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Verginin hesabatda göstərilən məbləği verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim

etməməklə yayındırılmışdırsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Vergi və ya cari vergi ödəməsi müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş məbləğin 0,1 faizi qədər vəsait alınır.

Məsələn, fərz edək ki, verginin ödənilməli olduğu gündən 96 gün keçmişdir. Ödənilməli olan vergi məbləği 1250 manatdırsa, nə qədər əlavə pul ödənməli olduğunu hesablayaq.

Ödəniş faizi 96 gün üçün

$$96 \cdot 0{,}1\% = 9{,}6\%$$

olduğundan, ödəniş məbləğinin 0,096 hissəsi əlavə ödənməlidir. Onda maliyyə sanksiyasının məbləği

$$1250 \cdot 0{,}096 = 120 \ \text{(manat)},$$

ödəniləcək ümumi məbləğ isə

$$1250 + 120 = 1370 \ \text{(manat)}$$

alınır.

# YOXLAMA TAPŞIRIQLARI

*1. Aşağıdakı suallara cavab verin:*

*- Vergi qanunvericiliyinin pozulması halları hansılardır?*

*- Vergi orqanlarına təqdim edilən sənədlər hansı şərtləri ödəməlidir?*

*- Kameral vergi yoxlaması nədir?*

*- Səyyar vergi yoxlaması necə həyata keçirilir?*

*2. Büdcəyə çatası 562 manat vergi məbləği üçün hesabat təqdim edilməmişdir. Maliyyə sanksiyası nə qədər olacaq?*

*3. 334 manat vergi məbləğinin ödənilmə vaxtından 82 gün keçmişdir. Vergi ödəyicisi cəmi nə qədər pul ödəməlidir?*

# Ə L A V Ə L Ə R

## ƏMANƏTƏ XƏYANƏT OLMAZ

*(Azərbaycan xalq nağılı)*

Günlərin bir günü bir nəfər ziyarətə getmək fik-rinə düşür. Min bir əziyyətlə yığdığı qızılların oğurlanacağından qorxub pul kisəsini qazının yanına gətirir:



Qazı ağa, - deyir, - bu kisədə yüz qızıl var, sənin yanında əmanət qoyub ziyarətə gedirəm. Saxla, mən qayıdanda verərsən.

Qazı pul kisəsini götürüb üstündə oturduğu döşəkçənin altına soxur:

- Yaxşı yol, arxayın get, ziyarətini elə. Gələn kimi əmanətini alarsan.

Kişi ziyarətdən qayıdır, qazının yanına gəlib qızıllarını istəyir. Qazı başlayır ah-vay eləməyə:

- Necə verim?! Haradan verim?! Vallah, biabır olmuşam. Heç bilmirəm neyləyim? Sən verən qızılları elə buradanca siçanlar daşıyıb aparıblar. Kisəni də deşik-deşik eləmişdilər. Atdım zibilliyə.

Kişi kor-peşiman evinə qayıdır, başlayır ora-bura şikayət eləməyə. Heç bir xeyri olmur. Axırda Bəhlul Danəndənin yanına gəlir. Qazının onu al-datdığını, pullarını qaytarmadığını danışır. Bəhlul qarğı atını minir, çapa-çapa saraya yollanır. «At»ını darvazanın yanında bağlayıb, padşahın yanına gedir, baş əyir, ona uzun ömür arzulayır.

Padşah deyir:

- Bəhlul Danəndə, sən çox ağıllı adamsan, amma özünü dəliliyə vurubsan. Bu dəlilikdən əl çək, sənə yaxşı bir vəzifə verim.

Bəhlul razılaşır:

- Əlahəzrət, mən dəlilikdən əl çəkərəm, bu şərtlə ki, istədiyim vəzifəni verəsən.

Şah ona istədiyi vəzifəni verəcəyini vəd edir. Bəhlul deyir:

- Mən siçanların vergi yığanı olmaq istəyirəm.

Padşah gülür:

- Ey Bəhlul Divanə, görünür, sən heç vaxt dəliliyindən əl çəkməyəcəksən. Belə də vəzifə olar?

Bəhlul Danəndə ciddi tərzdə:

- Ey böyük şah, - deyir, - Mən bilirdim ki, sən vədinə xilaf çıxacaqsan. Bəs baş vəzirlik arzusunda olsaydım, neylərdin? Adi bir vəzifəni də mənə qıymırsan.

Padşah pərt olur, qələm-kağız götürür, öz əliylə Bəhlul Danəndənin siçanlardan vergiyığan vəzifəsinə təyin edildiyi barədə fərman yazıb möhürləyir. Bəhlul kağızı götürür. Qarğı atını «səyirdib» şikayətçinin yanına qayıdır. Ona deyir:

- Mən gedirəm qazının evinə. Qohum qonşudan beş-altı nəfərlə belli-külünglü ora gəl.

Çox keçmir ki, qazının evinin yanına bir dəstə adam yığışır. Bəhlul onlara deyir:

- Binanın divarının böyrünü qazın!

Səs-küyə qazı içəridən çıxır. Görür ki, divar boyu dərin bir xəndək qazılıb. Hirslənir:

- Nə ixtiyarla evimi uçurursunuz?!

Bəhlul Danəndə əlində padşahın fərmanı irəli yeriyir:

- Hirslənmə, cənab qazı. Sən bizim hamımızdan da yaxşı bilirsən ki, vergiləri vaxtında ödəməyənləri padşah

necə cəzalandırır. Bu evin altındakı siçanlar düz bir ildir vergi vermirlər. Mən əlahəzrətin fərmanı ilə siçanlardan vergi yığan təyin olunmuşam. Gərək vergidən yayınanları tapıb onlarla haqq-hesab çəkim.

Qazı bir padşahın fərmanına baxır, bir divarın böyründəki əli külünglü, belli hazır dayanmış adamlara, görür dava-dalaşın xeyri yoxdur. Üzünü Bəhlula döndərib soruşur:



- Siçanların bu ilki borcu nə qədərdir?

Bəhlul Danəndə təmkinini pozmadan dillənir:

- Bu il onların gəliri beş yüz qızıl olub, xüms, yəni beşdən bir yüz qızıl eləyir. Padşahın göstərişinə görə, həmin pullar bu gün xəzinəyə təhvil verilməlidir.

Qazı hər şeyi başa düşür, yazıq-yazıq boynunu büküb soruşur:

- Bəlkə siçanların borcunu mən verim, evi uçurtmayasan?

Bəhlul razılaşır:

- Yaxşı, bu dəfə siçanların günahından keçirəm. Amma bir də onlar gəlirlərini gizlətsələr, yuvalarını başlarına uçurdacam, əmlaklarını müsadirə edəcəm.

Qazı yüz qızılı sayıb ziyarətdən qayıdan kişiyə qaytarır. Bəhlul Danəndə qazılmış xəndəyi doldurtdurur.

Deyirlər, o vaxtdan həmin qazı heç kəsin malına göz dikməyib. Borclarını da, vergiləri də vaxtında verib. Çox adam səfərə gedəndə pullarını həmin qazıya etibar edirmiş. Qazı pulları qəpiyinə qədər qaytarıb deyirmiş:

- Əmanətə xəyanət olmaz!

•

# ABDULLAH İBN FADİLİN NAĞILI

*(Ərəb xalq nağılından, bir parça)*

Günlərin bir günü xəlifə Harunəl-Rəşid torpaqların xəracını yoxlayırdı, gördü ki, Bəsrənin xəracından başqa bütün torpaqlardan və məmləkətlərdən xəzinəyə xərac gəlib. Xəlifə vəzirini yanına çağırdı. Vəzir gəlib onun hüzurunda dayananda, ona dedi: «Bütün məmləkətlərdən xəzinəyə xərac gəlib, Bəsrədən başqa. Bu il oradan heç bir şey gəlməyib». Vəzir dedi: «Ya əmirəlmöminin, bəlkə Bəsrə canişininin başına elə bir iş gəlibdir ki, xərac göndərməyi unutmuşdur». Harunəl-Rəşid dedi: «Xəracın gəlməsi müddətindən iyirmi gün keçibdir. Bu qədər gecikdirdiyi üçün özünə nə ilə bəraət qazandıracaqdır? O, nə xərac göndərib, nə də özünü təmizə çıxarmaq üçün xəbər çatdırıb». Vəzir dedi: «Ya əmirəlmöminin, istəyirsən onun yanına adam göndərək, səbəbini öyrənsin». Xəlifə razılaşdı: «Mosullu Əbu İshaqı onun yanına göndər». Vəzir dedi: «Baş üstə, ya əmirəlmöminin, Allaha və sənə itaət borcumdur!»

Sonra vəzir öz evinə getdi, mosullu Əbu İshaqı yanına çağırdı, ona fərman yazıb verdi və tapşırdı: «Bəsrə şəhərinin canişini Abdullah ibn Fadilin yanına get, gör xərac göndərməsinə nə mane olub, sonra Bəsrənin xəracını ondan tamam-kamal al, tez bura gətir. Görsən ki, xərac

hazır deyil, Abdullah da özünü təmizə çıxarmağa çalışır, onda onu özünlə gətir ki, səbəbini xəlifəyə öz dili ilə desin».

Əbu İshaq hörmətlə, itaətlə cavab verdi, öz qoşunundan beş min atlı götürüb Bəsrə şəhərinə getdi. Abdullah ibn Fadil onun gəldiyini bilib qoşunu ilə pişvazına çıxdı, onu qarşıladı, sarayına apardı. Əbu İshaq divanxanaya gedib taxta əyləşdi. İbn Fadil soruşdu: «Ağa, bizim məmləkətə gəlməyinizin səbəbi nədir?» Əbu İshaq cavab verdi: «Səbəb budur ki, mən xərac tələb eləməyə gəlmişəm. Xəlifə bu barədə narahatdır. Axı xəracın gəlməsi vaxtı keçibdir». Abdullah dedi: «Ağa, yolda yorulmayasan, səfərin yüngül keçsin! Xərac tamam-kamal hazırdır, mən onu sabah göndərməyə hazırlaşırdım»...

•

# VERGİYIĞANA HƏDİYYƏ

*(Koreya xalq nağılı)*

Keçmiş zamanlarda Xvan adlı bir vergiyığan vardı. Ömrü boyu baş vergıyığan olmaq istəmişdi, amma arzusuna çatmamışdı. Çalışırdı, qapı-qapı gəzirdi, daha çox vergi yığmaq üçün əlindən gələni edirdi, amma onun vəzifəsini artırmırdılar. Bilirdi ki, daha çox vergi yığa bilsə, onu baş vergiyığan qoyacaqlar. Ona görə bir dəfə kəndə gəldi. Cammatı yığıb dedi:

- Keçən ildəkindən iki dəfə artıq düyü, bir də əlavə olaraq üç jenşen kökü verməlisiniz. Yoxsa hamınızı kənddən qovacam. Sizə bir həftə vaxt verirəm.

Xvan sevinirdi: "Bütün ölkədə düyü yığılacaq, hökmdar məhsul yığımı ilə maraqlanacaq, biləndə ki, ən çox düyü, üstəlik üç jenşen kökü göndərmişəm, dərhal məni baş vergiyığan təyin edəcək".

Kəndlilər qapı-qapı gəzib düyü yığırdılar. Son dəninə qədər hamısını yığdılar, amma yenə istənilən qədər olmadı, jenşen kökü də yox idi.

Yazıqlar nə edəcəklərini bilmirdilər. Yığışdılar, danışdılar, yoruldular, qərar qəbul edə bilmədilər.

Birdən qoca ovçu onlara yaxınlaşdı:

- Sizin dərdinizi bilirəm. Yekə bir taxta qutum var. Bir pələng tutub ora salmışam. Gəlin, o qutunu Xvana göndərək, görək nə olur?

Kəndlilər razılaşdılar:

- Ovçu düz deyir. Bəlkə bununla vergiyığanı qorxudub didərgin sala bildik.

Cavanlar çətinliklə də olsa qutunu sürüyüb Xvanın yanına apardılar.

Xvan soruşdu:

- Bu nədir?

Kəndlilər hörmət əlaməti olaraq baş əydilər:

- Siz ədalətli vergi təyin etdiyinizə görə sizə hədiyyə gətirmişik.

Xvan əda ilə başını dikəltdi və razılığını bildirdi:

- Çox sağ olun, minnətdaram.

Kəndlilər təzədən baş əydilər və çıxıb getdilər.

Xvan qutunun yanında gəzişir, fikirləşirdi:

" Görəsən ceyrandırmı, maraldırmı? Hər nədirsə nəhəng heyvandır. Həm də çox narahatdır, az qalır taxtaları qopartsın. Qapağı bir az aralayım boğulmasın"

Qapağı azacıq qaldırdı. Pələng qutudan bayıra atıldı. Bunu görən Xvan hara getdiyini bilmədən bağıra-bağıra, ayağı dolaşa-dolaşa qaçdı.

Amma pələng ona fikir vermədi. Dağlara, özünün əvvəlki məskəninə üz tutdu.

Bununla da Xvanın baş vergiyığan olmaq arzusu gözündə qaldı.

●

# VERGİYIĞAN VƏ AXMAQ QARDAŞ

*(Abxaz xalq nağılı)*

Bir kənddə iki qardaş yaşayırdı. Biri ağıllı o biri axmaq idi. Ağıllı qardaş çox şey bilirdi, həm də sınıqçı idi. Axmaq qardaş isə heç nə bilmirdi.

Qırla qəsəbəsində cavanlardan birinin qolu sınmışdı. O birinin qıçı burxulmuşdu. Ağıllı qardaşa xəbər apardılar. O da axmaq qardaşı evdə qoyub yola düzəldi.

Bədbəxtlikdən həmin vaxt qardaşların həyətinə vergiyığan gəldi.

- Siz çar fərmanı ilə qoyulan vergini verməmisiniz, - dedi. - Bu gün ödəməsəniz başınıza bəla açacam.

Axmaq qardaş təəccübləndi:

- Nə danışırsan? Sən elə dünən gəlib vergini aparmadınmı?

Vergiyığan ona "yalançı" dedi, axmaq qardaş vergiyığanı "acgöz" adlandırdı. Başladılar davaya. Qəfildən vergiyığan yıxıldı, başı daşa dəydi və o öldü.

Axmaq qardaş meyiti dalına aldı, aparıb çaya tulladı.

Ağıllı qardaş evə qayıdanda axmaq əhvalatı danışdı. Ağıllı çaya girib meyiti çıxartdı, basdırdı və qoca keçisini öldürüb çaya atdı. Evə qayıdanda axmaq qardaşına tapşırdı ki, vergiyığanı öldürdüyünü heç kəsə deməsin.

Çara xəbər çatdı ki, vergiyığan yoxa çıxıb. Qəzəbləndi, axtarış əmri verdi. Camaatı meydana yığdılar, sorğu-sual başlandı.

Axmaq dedi:

- Mən onunla dalaşdım, itələyəndə yıxılıb öldü. Çaya atmışam. Gedək yerini göstərim.

Çay kənarına gəldilər. Amma heş kəs suya girmək istəmədi.

Axmağın belinə kəndir bağlayıb çaya atdılar, iki nəfər də kəndirdən tutdu ki, lazım olanda dartıb çıxara bilsinlər.

Axmaq suya baş vurdu, əlinə keçinin buynuzları gəldi. Tez suyun üzünə çıxıb qışqıra-qışqıra:

- Vergiyığanın buynuzları var idimi? - soruşdu.

Camaat təəccübləndi. O isə fikir vermədən yenə suya cumdu. Az sonra yenə sudan başını qaldırdı:

- Vergiyığanın bütün bədəni tüklü idimi?

Hamını heyrət bürümüşdü. Bu vaxt ağıllı qardaş gəlib çıxdı:

- Nə olub? Nə üçün yığışmısınız?

- Qardaşın deyir ki, vergiyığanı öldürüb çaya atıb, indi də onun tükündən, buynuzundan danışır.

Ağıllı qardaş dedi:

- Ay camaat, hamınınz bilirsiniz ki, qardaşım ağıldan kəmdir. İndi onun sözünə inanıb bura gəlmisinizsə ondan heç də geri qalmırsınız. Özünüzü elə aparırsınız ki, guya tüklü, buynuzlu vergiyığan çayın dibindədir.

Hamı gülüşdü.

Axmağı dartıb sudan çıxartdılar və dağılışdılar.

Çar həmin əyalətə təzə vergiyığan təyin elədi. O, əvvəlki kimi insafsız deyildi və camaatı incitmirdi.

●

# ƏCİNNƏLƏR VERGİ YIĞANI NECƏ ALDATDILAR

*(Bask[1] xalq nağılı)*

Biri vardı, birdi yoxdu, İsturis[2] şəhərində bir kəndli vardı. Çox kasıb idi. Aclıqla, soyuqla dostluq edirdi, bolluq ondan uzaq düşmüşdü.

Bir dəfə günortda onun daxmasına vergiyığan gəldi.

- Xəbərim var, sabah biçinə başlamaq istəyirsən,- dedi, - Gəl belə danışaq. Bu gecə nə yığa bilsən sənindir, işıqlaşandan sonra nə qalsa onu vergiyə hesab edəcəm.

Kəndli dərd-qəmə batdı. Əlləri ilə başını tutub fikrə getdi: Bir gecədə tək adam neyləyə bilər?

Qəfildən yadına düşdü ki, babası gecələr insanlara kömək edən əcinnələrdən danışardı. Deyərdi ki, onlara pendir-çörək versələr kefləri yaxşı olanda darda qalana kömək edərlər. Onların kefinin yaxşı olduğunu bilmək üçün gizlənib qulaq asmaq lazımdır; oxuyanda "çirin-çirin-çirin" deyirlərsə, deməli nə arzulasan, yerinə yetirəcəklər, "firqulin-firqulin" deyirlərsə, onda heç bir xeyri yoxdur, kömək etməyəcəklər.

Kəndli evində olan pendir-çörəyi süfrəyə qoyub gizləndi. Az sonra əcinnələr "çirin-çirin" oxuya-oxuya gəldilər. Əyləşib pendir-çörəyi yedilər. Sonra onlardan biri dedi:

- Gizlənmə, ev sahibi, biz hər şeyi bilirik. Qorxma, xoruz banına qədər işləyəcəyik.

Hamısı ayağa durub getdi.

Sübh tezdən kəndli durub gördü ki, ev taxılla doludur. Sevindi:

- Çirin-çirin, ay əcinnələr, çox sağ olun.

Vergiyığan zəmiyə yaxınlaşanda bütün taxılın yığıldığını gördü və kor-peşiman çıxıb getdi. Amma məlum olmadı ki, o, "firqulin-firqulin" deyirdimi? Bir də ki, bunun nə əhəmiyyəti var? Olan olmuşdu.

[1]Basklar - İspaniyanın şimalında və Fransanın cənub-şərqində yaşayan xalq.
[2]İsturis - Fransada Aşağı Navarra əyalətində yaşayış məntəqəsi.



## NİZAMİ GƏNCƏVİ
*(1141-1209)*

# «YEDDİ GÖZƏL» POEMASINDAN HİSSƏLƏR

*(ixtisarla)*

... Şah yaxşı bildi ki, iş nə haldadır,
Gördü sələmətin başı qaldadır.
Belə qərar verdi: varkən imkanı,
Tədbirlə eyləsin məğlub düşmanı.
Pənah ordudadır, xəzinədədir,
Bunlar da olmasa, ad, zəfər nədir?
Bilincə Bəhram ki, xəznə boşalmış,
Nə dava sursatı, nə ordu qalmış,
Döndü dişsiz şirə, sıxıldı yaman,
Oldu gözlərində ölkəsi zindan.
Eşitmişəm şahın, üzlərdən iraq,
Bir vəziri vardı allahdan uzaq.
Rastü-Rövşən qoymuş adını, düzü,
Bu addan uzaqdı olduqca özü,
Düzlükdə yuxaydı, nazikdi qat-qat,
Düzlüyü əyrilik, işığı zülmat…

... Zülmün atəşinə canlar qalandı,
Ocaqlar talandı, evlər talandı.
Yaman bir məqama çatdı əhali,
Qalmadı kimsənin dövləti, malı.
Çoxluq  deyil, etdi yoxluq çox əsər,
Ölkədə qalmadı varlı bir nəfər.
Məmləkət döndükcə xarabazara,
Xəznə həsrət qaldı gəlirə, vara.
Torpaqda mədaxil, məhsul olmadı,
Odur ki, xəznədə bir şey qalmadı.
Gəlir yox, ödənməz oldu vergilər,
Günləri xoş   keçən yoxdu bir nəfər ...
... Qəzəblə çığırdı Bəhram vəzirə,
Qorxudan az qaldı o girsin yerə:
«El xaraba olub, səbəbi sənsən!
Yurd bəzəksiz qalıb, viran edənsən.
Qoydun quru yerdə, talayıb məni,
Gövhərlə doldurdun öz xəzinəni.
Soydun rəiyyəti, talan var kimi,
Susadın canına canavar kimi.
Eldən almalıykən vergi, ya xərac,
Gah kəmər almısan, gah almısan tac.
Nə rast, nə rövşənsən, aydınlıq itdi,
Getdi işıqlıq da, düzlük də getdi».
Sonra bir cəllada dedi: «Onu al,
Cənnətdən sürüyüb cəhənnəmə sal!»



**NƏSİRƏDDİN TUSİ**
*(1201-1274)*

## «ƏXLAQİ-NASİRİ» ƏSƏRİNDƏN PARÇA

Dövlət yalnız ədalət əsasında uzun müddət yaşaya bilər. Ədalətin birinci şərti odur ki, xalqın müxtəlif təbəqələri arasında uyğunluq yaradılsın. İnsanın sağlamlığı dörd ünsür arasındakı tənasüblükdə olduğu kimi, cəmiyyət arasındakı uyğunluq da dörd sinfin qarşılıqlı uyğunluğunda olar.

Birinci – qələm əhli. Məsələn, alimlər, maarifpərvərlər, riyaziyyatçılar, mühəndislər, təbiblər, şairlər kimi. Dünyanın və dinin davamlılığı bunların varlığına bağlıdır. Bunlar təbiətdəki ünsürlərdən (su, od, hava, torpaq) «su» yerində olarlar.

İkinci – qılınc əhli. Məsələn, döyüşçülər, cəngavərlər, sərhədçilər, keşikçilər, saray qoruyucuları, dövlət mühafizəçiləri kimi. Dünyanın nizam-intizamı bunların varlığına bağlıdır. Bunlar «od» yerində olarlar.

Üçüncü – müamilə əhli. Məsələn, tacirlər, bac-xərac toplayanlar kimi. Bunların köməyi olmadan insanların məişətini təmin edib dolandırmaq mümkün deyildir. Bunlar «hava» yerində olarlar.

Dördüncü – ziraət əhli. Məsələn, əkinçilər, biçinçilər, suvarıcılar, maldarlar kimi. Bütün adamların yemək-içməklərini bunlar hazırlayarlar. Bunların əməyi olmadan insanın yaşaması mümkün deyildir. Bunlar «torpaq» yerində olarlar.

Bədəndə bir ünsür başqa ünsürlərə üstün gəldikdə məzac pozulduğu kimi, bu siniflərdən də biri başqa üç sinfə üstün gəldikdə cəmiyyətdəki işlərin tarazlığı pozular, müxtəlif fəsad yaranar.

Bu dörd dəstə birgə, əlbir, ahəngdar fəaliyyət göstərdikdə mədəniyyət, fəzilət və səadət sistemi əmələ gələr.



**MİRZƏ ƏLƏKBƏR SABİR**
*(1862-1911)*

# HƏR NƏ VERSƏN, VER, MƏBADA VERMƏ BİR DİRHƏM ZƏKAT

*(ixtisarla)*

Hər nə versən, ver, məbada, vermə bir dirhəm zəkat,
Qoy acından ölsə, ölsün, binəva kəndli və tat.
Hər nə düz versən, ver, oğlum, borcunu vermə təmam,
Hər nə alsan, al, amandır, alma kasıbdan səlam.
Hər yerə gəlsən, gəl, amma gəlmə dərsə, məktəbə,
Hər kəsə uysan, uy, amma uyma dinə, məzhəbə.
Hər nə çəksən, çək, bəradər, çəkmə düz mizanını,
Çəkmə sən millət qəmin, çəkmə, çək öz qəlyanını.

•



**MİKAYIL MÜŞFİQ**
*(1908-1938)*

# ŞƏNGÜL, ŞÜNGÜL, MƏNGÜL

*(nağıldan parça)*

Az getdilər, üz getdilər,
Dərə, təpə, düz getdilər,
Yaxında bir qazı vardı,
İnsafsız və tamahkardı,
Ana keçi dala qaldı,
Canavar bir quzu aldı,
Gəldi qazının yanına,
Başladı öz yalanına,
Sovqat qazıya xoş gəldi,
Keçisə əliboş gəldi.
Qazı dedi: "Nə var, keçi?
Doğru yoldan kənar, keçi!
Yenə nə var, nə deyirsən,
Qazıdan nə istəyirsən?"

Keçi dedi: "Dərdim çoxdur,
Heç halıma yanan yoxdur,
Bunu aydın bilir hamı,
Qurd yemiş iki balamı".
Qazı dedi: "Yalan demə,
Özgəsinə böhtan demə.
Sən özün çox tərs keçisən,
Keçilərin ən bicisən.
Sən allahı unutmusan,
Bambaşqa bir yol tutmusan,
Verməyirsən  xüms, zəkat,
Hanı gətirdiyin sovqat?
Hər şey aydınlaşdı tamam,
Mən sovqatsız işə baxmam".



**ROBERT ŞEKLİ**
*(1928-2005)*
(Amerika yazıçısı)

# TRANAY PLANETİNƏ BİLET

*(povestdən parça)*

Qudmen həyəcanlı halda polis görmək ümidi ilə ətrafa göz gəzdirdi. Birdən yadına düşdü ki, Tranayda polis olmur. Tində kiçik bir bar gördü. Binanın üstündə «Kitti Ket Bar» yazılmış neon lövhə parıldayırdı. O, tələsik özünü bara saldı.

İçəridə ciddi-cəhdlə stəkanları silən barmendən başqa heç kəs yox idi.

- Qarət etdilər! - Özünə gələ bilməyən Qudmen ucadan səsləndi ...

- Oğrunun maskası hansı rəngdə idi?

Qudmen bir an duruxdu.

- Qara. O, qara ipək maskadaydı.

Barmen başını tərpətdi:

- Hə, deməli, bu adam dövlət vergiyığanı imiş.

Qudmen narazı halda donquldandı:

- Bu vergilərin alınmasının çox qəribə üsuludur.

Barmen izah elədi:

- Məsələyə ictimai fayda nöqteyi-nəzərindən baxmağa çalışın. Axı hökumətə vəsait lazımdır. Vergiləri bu cür yığmaqla biz gəlir vergisindən, onun hüquqi keşməkeşlərindən və bürokratik əziyyətindən canımızı qurtarırıq. Psixoloji baxımdan da bu əməliyyat çox əlverişlidir. Qısa müddət ərzində vətəndaşın pulunu əlindən almaq, onun bir il əzab-əziyyətlə vergi ödəmə gününü gözləməsindən daha yaxşıdır.

Qudmen soruşdu:

- Siz nə üçün soyğunçuluq edən adamın maskasının rəngi ilə maraqlandınız?

Barmen dedi:

- Qara rəng - dövlət rəngidir. Başqalarının maskası ağ olur.

●

# VERGİLƏR HAQQINDA MARAQLI ƏHVALATLAR

Orta əsrlərdə Almaniya hissələrə bölünmüşdü və hər bir ərazini müəyyən hökmdar (feodal) idarə edirdi. Onun yerlərdə canişinləri var idi. Canişin (almanlar buna foqt deyirdilər) cavabdeh olduğu ərazidə cinayət baş verdikdə, cinayətkarı cəzalandırırdı. Adam öldürmək üstündə altı aylıq həbs cəzası verilə və ya müəyyən məbləğdə cərimə alına bilərdi. Cinayətkardan cəriməni foqt alırdı və o, məbləğin bir hissəsini feodala verirdi. Cinayət cəzasız qalsa da müəyyən edilmiş məbləğ (yəni əslində vergi) feodala foqt tərəfindən ödənməliydi.

Fransada XVII əsrdə hər bir şəxs əvvəlcədən dövlət orqanlarına pul ödəməklə razılaşdırılmış ərazidə vergi yığmaq ixtiyarına malik olurdu. Türkiyədə isə XIX əsrdə dövlət vəzifələrində işləyənlər hədiyyələrdən də vergi verirdilər.

Rus çarı İvan Qroznının dövründə xüsusi vergi yığan dəstələr yaradılmışdı; bunlara opriçnina deyirdilər. Çarın xüsusi agentləri olan bu dəstə üzvləri öz opriçnik həmkarlarına sədaqətli olacaqları barədə and içirdilər. Onlar qara paltar geyir və qara at minirdilər; atların yəhərinə süpürgə və it başı şəkli çəkilirdi; süpürgə çarın düşmənlərini

süpürüb atmaq, it başı – çara etibarlılıq nişanəsidi. Opriçniklər çox əzazil adamlar idilər. Bir opriçnikin gündəliyində aşağdakı sözlər yazılmışdı: « Bu gün heç kəsə ziyan vurmadım; dincəlirdim.»

İsveçdə krala heykəl qoymaq istəyirdilər. Bunun üçün pul lazım idi. Ölkənin baş xəzinədarına müraciət etdilər. O cavab verdi ki, pul yoxdur. Vergiləri artırmağa cəsarət etməyib lazım olan qədər əlavə pul buraxdılar və bu pul ilə krala heykəl qoydurdular. Beləliklə pul yenə də vergi ödəyicilərindən alındı. Çünki artıq pul çapı onun dəyərdən düşməsinə səbəb oldu.

Fransa kralı Karl xalq qəhrəmanı Janna Darkı mükafatlandırmaq istədikdə, o, doğma kəndi Domreminin vergidən azad olunmasını xahiş etmişdi.

Rus çarı I Pyotrun 1704-cü il fərmanı ilə əhalidən hamam vergisi tutulurdu. Hamamı olan dövlət qulluqçuları və tacirlər 3 rubl, mülkədarlar və sənətkarlar 1 rubl, kəndlilər 15 qəpik ödəməli idilər.

Tarixçilər Avropada təqribən 80 vergi qiyamı barədə yazmışlar. Dünyada olan vergi qiyamlarından biri Amerika Birləşmiş Ştatlarının yaranmasına səbəb olmuşdur. Bu qiyam «Boston çay dəsgahı» adlanır.

İngiltərə öz müstəmləkələrinə, o cümlədən də Amerikaya çay gətirilməsi üçün vergi alırdı. Lakin Amerikada yaşayanları bu o qədər də narahat etmirdi, çünki onlar çayı əsasən Hollandiyadan qaçaq mal kimi xəlvəti gətirirdilər. İngilislər çayın Amerikaya açıq şəkildə daxil olması üçün nəzərdə tutulan rüsumu ləğv etdilər. Bunun nəticəsində açıq şəkildə gətirilən çay, qaçaq mal kimi gətirilən çaydan da ucuz satılmağa başladı. Beləliklə, qaçaqmalçılar öz gəlirlərindən məhrum oldular, amma İngiltərə çay vergisini almaq imkanı qazandı.

1773-cü ilin dekabrında Boston limanına üç gəmidə çay gətirildi və Massaçusetsin qubernatoru Tomas Xatçinson bostonlulardan vergini ödəməyi tələb etdi. Dekabrın 16-da özlərini hindu şəklinə salmış bir qrup bostonlu gəmiləri tutdu, çay ilə dolu 342 yeşik dənizə atıldı. Qiyamçılar elə oradaca İngiltərə vergi yığanını asdılar.

Bu hadisədən sonra Böyük Britaniya hökuməti Boston limanını bütün gəmilər üçün bağladı. Narazı əhali də qiyamçılara qoşuldu və nəticədə Britaniya Amerikadakı müstəmləkəsini itirdi. Yeni müstəqil dövlət – Amerika Birləşmiş Ştatları yarandı.

XIX əsrə qədər Fransada evlərin qapı və pəncərələri üçün vergi verirdilər. Vergiyığan evin ətrafında gəzib bütün qapı və pəncərələri sayır, sonra isə ümumi məbləği hesablayıb ev sahibindən onu ödəməsini tələb edirdi.

Bu vergi Hollandiyada da tətbiq olunmuşdu. Ona görə həmin dövrdə Hollandiyada evlərin böyük əksəriyyətinin bircə pəncərəsi vardı.

Vergi qanunlarının pozulması Amerika Birləşmiş Ştatlarında ciddi cəzalandırılır. Məsələn, vergi bəyannaməsi düzgün doldurulmadıqda min dollara qədər cərimə alına bilər. Gəlirin azaldılmasına görə günahkar 5 min dollar cərimə oluna və ya 5 il həbs cəzasına məhkum edilə bilər. XX əsrin əvvələrində Amerika Birləşmiş Ştatlarında məşhur qanqster Al Kaponenin cinayətkar dəstəsi fəaliyyət göstərirdi. Onlar yüzdən artıq adam öldürmüşdülər. Lakin cinayətlərdə Al Kaponenin təqsirini sübut etmək mümkün olmurdu. Onun öhdəsindən vergi araşdırmaları idarəsinin agentləri gəldilər. Al Kapone vergini ödəməmək üçün gəlirlərini gizlətdiyinə görə həbs edildi.

Amerika Birləşmiş Ştatlarının prezidenti Reyqan inanırdı ki, yüksək vergi dərəcələri işləməyə həvəsi azaldır. O özü bunun şahidi olmuşdu. İkinci dünya müharibəsi zamanı gəlir vergisinin ən yüksək dərəcəsi 94 faiz idi. Həmin dövrdə Reyqan kinoya çəkilirdi və cəmisi dörd filmdə çəkildikdən sonra kəndə getmişdi.

ABŞ-da vergi dərəcələri müharibədən sonra tədricən azaldılaraq, 80-ci illərin əvvəlində 50 faiz, axırında isə 28 faizə düşmüşdü.

1960-cı illərin əvvəllərində dövlət başçısı N.S.Xruşşov Sovet İttifaqında gəlir vergisini ümumiyyətlə ləğv etməyi məqsədəuyğun sayırdı. Doğrudan da o zamanlar hər kəs dövlət tərəfindən nəzərdə tutulmuş qaydada əmək haqqı alırdı və bu əmək haqqını müəyyən qədər azaltmaqla vergi tutmamaq heç nəyi dəyişməyəcəkdi. Lakin o vaxtkı maliyyə naziri F.Qarbuzov ölkə başçısının fikri ilə razılaşmamış-dı. O demişdi ki, vergilər xalq təsərrüfatında qanun-qaydanın möhkəmlənməsinə kömək edir.

Qvineyada «sülh vergisi» alınır. Hər bir ölkə vətəndaşı müharibə olmayan il üçün təqribən 20 ABŞ dolları məbləğində vergi ödəyir.

İsveçdə vergi ödəyiciləri və onların ödədikləri məbləğ barədə hesabat XVI əsrdən başlayaraq aparılır. Bütün sənədlər indi də bu ölkənin arxivlərində qorunub saxlanmaqdadır.

# AZƏRBAYCAN RESPUBLİKASININ VERGİ MƏCƏLLƏSİ

*(parçalar)*

**Maddə 1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə tənzimlənən münasibətlər**

**1.1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edir.

**1.2.** Bu Məcəllə ilə Naxçıvan Muxtar Respublikasında və bələdiyyələrdə vergitutmanın ümumi əsasları və vergilər müəyyən edilir.

**1.3.** Bu Məcəllə ilə müəyyən olunan anlayışlar və qaydalar vergitutma məqsədi ilə müəyyən edilir və müstəsna olaraq bu Məcəllə və onun əsasında qəbul edilmiş digər normativ hüquqi aktlar ilə tənzimlənən vergitutma və vergi nəzarəti ilə bağlı münasibətlər hüdudlarında tətbiq olunur.

**Maddə 2. Azərbaycan Respublikasının vergi qanunvericiliyi**

**2.1.** Azərbaycan Respublikasının vergi qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Məcəllədən və onlara uyğun olaraq qəbul edilmiş Azərbaycan Respublikasının qanunvericilik aktlarından ibarətdir.

**2.2.** Bu Məcəllənin əsasında və ya onun icrası məqsədi ilə qəbul edilmiş normativ hüquqi aktlar bu Məcəllənin müddəalarına zidd olmamalıdır.

**2.3.** Vergi qanunvericiliyi aktları ilə digər sahə qanunvericilik aktları arasında bu Məcəllənin 2.7-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, vergitutma və vergi nəzarəti məsələləri üzrə ziddiyyət yarandıqda vergi qanunvericiliyinin aktları tətbiq edilir.

**2.4.** Aşağıdakılar istisna olunmaqla, vergi qanunvericiliyindən başqa digər qanunvericilik aktlarına vergitutma və vergi nəzarəti məsələləri daxil edilə bilməz:

**2.4.1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan vergi münasibətlərinə aid inzibati xətalar haqqında müddəalar;

**2.4.2.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan vergi cinayətləri haqqında müddəalar;

**2.4.3.** vergi öhdəliklərinin üstünlüyü haqqında müflisləşmə və iflas haqqında qanunvericilikdə nəzərdə tutulan müddəalar;

**2.4.4.** büdcə qanunvericiliyində vergilərlə bağlı müddəalar;

**2.4.5.** vergilər üzrə dövlət təminatlarının və müddətli güzəştlərin verilməsi ilə bağlı müddəalar;

**2.4.6.** hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə və ya qanunlarda nəzərdə tutulan müddəalar;

**2.4.7.** İxrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda nəzərdə tutulan müddəalar.

**2.5.** Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə vergilər haqqında bu Məcəllə ilə və ona müvafiq olaraq qəbul edilmiş normativ hüquqi aktlarla nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, həmin beynəlxalq müqavilələrin müddəaları tətbiq edilir.

**2.6.** Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilə ilə bu müqavilə bağlanan dövlətin rezidentinə verilən vergi güzəştlərinə və üstünlüklərinə münasibətdə, həmin müqavilə onu bağlamış dövlətin rezidenti olmayan şəxs tərəfindən qeyd edilən güzəştlərin və üstünlüklərin alınması üçün istifadə edilirsə, bu Məcəllənin 2.5-ci maddəsinin müddəaları tətbiq olunmur.

**2.7.** Bu Məcəllə qüvvəyə minənədək və ya o, qüvvəyə mindikdən sonra qanunla təsdiq olunmuş hasilatın pay

bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə və ya qanunlarda, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda bu Məcəllədə və vergilər haqqında digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, həmin sazişlərin və ya qanunların müddəaları tətbiq edilir.

**2.8.** Növbəti ilin dövlət büdcəsi layihəsi çərçivəsində vergi siyasəti, vergi inzibatçılığı və vergi dərəcələrinin müəyyən edilməsi ilə bağlı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi zərurəti yarandıqda həmin qanun layihələri müvafiq icra hakimiyyəti orqanına cari ilin may ayının 1-dək, müvafiq icra hakimiyyəti orqanı tərəfindən isə Azərbaycan Respublikasının Milli Məclisinə cari ilin may ayının 15-dən gec olmayaraq təqdim edilir.

### Maddə 3. Vergilərin müəyyən edilməsinin və tutulmasının əsasları

**3.1.** Vergilər haqqında qanunvericilik vergitutmanın ümumi, bərabər və ədalətli olmasına əsaslanmalıdır.

**3.2.** Vergilər iqtisadi cəhətdən əsaslandırılmalıdır.

**3.3.** Hər kəsin Konstitusiya hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə maneçilik törədən vergilərin müəyyən edilməsinə yol verilmir.

**3.4.** Azərbaycan Respublikasının vahid iqtisadi məkanını pozan (xüsusilə, Azərbaycan Respublikasının ərazisində malların (işlərin, xidmətlərin) və pul vəsaitlərinin azad yerdəyişməsini bilavasitə və ya dolayısı ilə məhdudlaşdıran və ya digər yolla vergi ödəyicilərinin qanuni fəaliyyətini məhdudlaşdıran, yaxud maneçilik törədən) vergilərin müəyyən edilməsinə yol verilmir.

**3.5.** Heç bir şəxs əldə etdiyi mənfəətdən (gəlirdən) eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilə bilməz.

**3.6.** Vergilər siyasi, ideoloji, etnik, konfessional və vergi ödəyiciləri arasında mövcud olan digər xüsusiyyətlər əsas götürülməklə müəyyən edilə bilməz və diskriminasiya xarakteri daşıya bilməz.

Mülkiyyət formasından və ya fiziki şəxslərin vətəndaşlığından və ya kapitalın yerindən asılı olaraq vergilərin müxtəlif dərəcələrinin müəyyən edilməsi qadağandır.

Azərbaycan Respublikasına gətirilən mallar üçün həmin malların hansı ölkədən gətirilməsindən asılı olaraq bu Məcəlləyə və gömrük qanunvericiliyinə uyğun olaraq müxtəlif gömrük rüsumu dərəcələrinin müəyyən edilməsi mümkündür.

**3.7.** Azərbaycan Respublikasının vergiləri yalnız bu Məcəllə ilə müəyyən edilir, onların dəyişdirilməsi və ya ləğv edilməsi bu Məcəlləyə dəyişiklik edilməsi ilə həyata keçirilir.

**3.8.** Heç bir şəxsin üzərinə bu Məcəllə ilə müəyyən edilən vergilərin xüsusiyyətlərinə malik olan və bu Məcəllə ilə müəyyən edilməyən, yaxud bu Məcəllə ilə müəyyən edilən qaydalardan fərqli olaraq müəyyən edilən vergilər ödəmək vəzifəsi qoyula bilməz.

**3.9.** Vergilər haqqında qanunvericilik elə tərzdə formalaşdırılmalıdır ki, hər kəs hansı vergiləri, hansı qaydada, nə vaxt və hansı məbləğdə ödəməli olduğunu dəqiq bilsin.

**3.10.** Vergi sistemi sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməlidir.

**3.11.** Vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamları vergi ödəyicisinin xeyrinə şərh edilməlidir.

**3.12.** Fiziki və hüquqi şəxslərin vergilərə aid normativ hüquqi aktlarla azad tanış olmaq imkanı təmin edilməlidir.

**Maddə 4. Azərbaycan Respublikasında vergi sistemi**

**4.1.** Azərbaycan Respublikasında aşağıdakı vergilər müəyyən edilir və ödənilir:

**4.1.1.** dövlət vergiləri;

**4.1.2.** muxtar respublika vergiləri;

**4.1.3.** yerli vergilər (bələdiyyə vergiləri).

**4.2.** Dövlət vergiləri dedikdə, bu Məcəllə ilə müəyyən edilən və Azərbaycan Respublikasının bütün ərazisində ödənilməli olan vergilər nəzərdə tutulur.

**4.3.** Muxtar respublika vergiləri dedikdə, Naxçıvan Muxtar Respublikasında bu Məcəlləyə müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının qanunları ilə müəyyən edilən və Naxçıvan Muxtar Respublikasında ödənilən vergilər nəzərdə tutulur.

**4.4.** Yerli vergilər (bələdiyyə vergiləri) dedikdə, bu Məcəllədə və müvafiq qanunla müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və bələdiyyələrin ərazilərində ödənilən vergilər nəzərdə tutulur. Bələdiyyələr tərəfindən tətbiq edilən digər məcburi ödənişlər müvafiq qanunla müəyyən edilir.

Yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir. Vergi qanunvericiliyinə uyğun olaraq bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər.

**4.5.** Azərbaycan Respublikasında bu Məcəlləyə uyğun olaraq xüsusi vergi rejimi tətbiq edilə bilər.

Xüsusi vergi rejimi dedikdə, müəyyən dövr ərzində vergilərin hesablanması və ödənilməsinin xüsusi qaydası nəzərdə tutulur.

**4.6.** Bu Məcəllə ilə nəzərdə tutulmayan vergilərin müəyyən edilməsinə yol verilmir.

**Maddə 5. Vergitutmanın formaları**

**5.0.** Vergi məbləğləri aşağıdakı formalarda tutulur:

**5.0.1.** bilavasitə mənbədən (verginin gəlir və ya mənfəət əldə edilməsinədək tutulması);

**5.0.2.** bəyannamə üzrə (verginin gəlir və ya mənfəət əldə edilməsindən sonra tutulması);

**5.0.3.** bildiriş üzrə (vergitutma obyektinin dəyəri və sahəsi əsasında vergi orqanının və ya bələdiyyənin hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyə bildirişi əsasında vergi ödəyicisi tərəfindən verginin ödənilməsi).

**Maddə 6. Dövlət vergiləri**

**6.1.** Dövlət vergilərinə aşağıdakılar aiddir:

**6.1.1.** fiziki şəxslərin gəlir vergisi;

**6.1.2.** hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa);

**6.1.3.** əlavə dəyər vergisi;

**6.1.4.** aksizlər;

**6.1.5.** hüquqi şəxslərin əmlak vergisi;

**6.1.6.** hüquqi şəxslərin torpaq vergisi;

**6.1.7.** yol vergisi;

**6.1.8.** mədən vergisi;

**6.1.9.** sadələşdirilmiş vergi;

**6.2.** Bu Məcəllə ilə bütün dövlət vergilərinin dərəcələrinin ən yüksək hədləri müəyyən edilir.

**6.3.** Dövlət vergilərinin hər il üçün tətbiq olunan dərə-

cələri bu Məcəllədə müəyyən edilən dərəcələrdən yüksək ola bilməz və hər il Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında qanunu qəbul edilən zaman həmin dərəcələrə yenidən baxıla bilər.

**Maddə 7. Muxtar respublika vergiləri**

Muxtar respublika vergilərinə Naxçıvan Muxtar Respublikasında tutulan bu Məcəllənin 6.1-ci maddəsində sadalanan dövlət vergiləri aiddir.

**Maddə 8. Yerli vergilər (bələdiyyə vergiləri)**

**8.1.** Yerli vergilər (bələdiyyə vergiləri) aşağıdakılardır:

**8.1.1.** fiziki şəxslərin torpaq vergisi;

**8.1.2.** fiziki şəxslərin əmlak vergisi;

**8.1.3.** yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;

**8.1.4.** bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

**8.2.** Yerli vergilərin hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və bələdiyyələrin vergi xidməti orqanlarının hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, bələdiyyələrin vergi xidməti orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydaları müvafiq qanunvericiliklə müəyyən edilir.

**Maddə 9. Vergilərin hesablanmasının və ödənilməsinin pul vahidi**

Azərbaycan Respublikasının ərazisində vergilər Azərbaycan Respublikasının pul vahidi – manatla hesablanır və ödənilir.

**Maddə 10. Vergi qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçıları**

**10.0.** Vergi qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçıları aşağıdakılardır:

**10.0.1.** bu Məcəlləyə uyğun olaraq vergi ödəyicisi hesab edilən hüquqi və fiziki şəxslər;

**10.0.2.** bu Məcəlləyə uyğun olaraq vergi agenti hesab edilən hüquqi və fiziki şəxslər;

**10.0.3.** Azərbaycan Respublikasının dövlət vergi orqanları;

**10.0.4.** Azərbaycan Respublikasının gömrük orqanları;

**10.0.5.** bu Məcəllə ilə nəzərdə tutulan məsələlərin həlli ilə bağlı Azərbaycan Respublikasının maliyyə orqanları;

**10.0.6.** bu Məcəllə ilə nəzərdə tutulan hallarda vergi ödəyicilərindən vergilərin ödənilməsi üçün vəsaitlərin alınmasını və onların büdcəyə köçürülməsini, vergi və gömrük orqanlarından başqa, müəyyən edilmiş qaydada həyata keçirən dövlət hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, digər səlahiyyətli orqanlar və vəzifəli şəxslər.

**Maddə 11. Vergi anlayışı**

Vergi – dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir.

**Maddə 12. Vergilərin müəyyən edilməsinin əsas şərtləri**

**12.1.** Vergi o halda müəyyən edilmiş hesab olunur ki, bu zaman vergi ödəyicisi və aşağıdakı vergitutma elementləri müəyyən edilmiş olsun:

**12.1.1.** vergitutma obyekti;

**12.1.2.** vergitutma bazası;

**12.1.3.** vergi dövrü;

**12.1.4.** vergi dərəcəsi;

**12.1.5.** verginin hesablanması qaydası;

**12.1.6.** verginin ödənilməsi qaydası və müddəti.

**12.2.** Vergi müəyyən edildikdə, bu Məcəllə ilə nəzərdə tutulan əsaslarla vergi güzəştləri müəyyənləşdirilə bilər.

**12.3.** Vergitutma obyekti gəlir, mənfəət, əmlak, torpaq, faydalı qazıntılar, təqdim edilmiş malların (işin, xidmətin) əlavə edilmiş dəyəri və ya bu Məcəllə ilə müəyyənləşdirilən digər vergitutma obyektləridir.

**12.4.** Vergitutma bazası – vergitutma obyektinin vergi tutulan hissəsinin kəmiyyətcə ifadəsidir.

# İÇİNDƏKİLƏR

Ön söz.......................................................5

1. Vergilər, onların əlamətləri və prinsipləri .......................8
1.1. Vergi, büdcə və maliyyə ...............................................8
1.2. Vergilərin əsas əlamətləri ............................................11
1.3. Vergi tutmanın prinsipləri............................................12
1.4. Vergi sistemləri .........................................................14

2. Dövlət büdcəsi: gəlirlər və xərclər ...................................20
2.1. İqtisadi azadlıq və onun qorunma mexanizmi .............20
2.2. Büdcə gəlirləri.............................................................22
2.3. Büdcə xərcləri ............................................................23

3. Vergilər barədə qısa tarixi məlumat ................................31
3.1. Qədim dövrlərdə vergilər ..............................................31
3.2. Ərəb xilafətində vergilər...............................................35
3.3. Orta əsrlərdə vergilər ...................................................38
3.4. Müasir dövrdə vergi sistemləri......................................43

4. Azərbaycan Respublikasının vergi sistemi .....................47
4.1. Respublikamızda vergilər ............................................47
4.2. Vergi sistemində əsas anlayışlar ..................................48

5. Gəlir vergisi.......................................................55
5.1. Gəlir vergisinin yaranması və müxtəlif ölkələrin
büdcəsinə təsiri.............................................................55
5.2. Azərbaycanda gəlir vergisi ...........................................57

6. Mənfəət vergisi ........................................................65
6.1. Ümumi gəlir və ümumi mənfəət..................................65
6.2. Hüquqi şəxslərdən mənfəət vergisi ..............................65

7. Əlavə dəyər vergisi .....................................................73
7.1. Əlavə dəyər və əlavə dəyər vergisi ..............................73
7.2. Əlavə dəyər vergisinin müxtəlif ölkələrdə dərəcələri.....75

8. Aksizlər ......................................................................79
8.1. Aksiz və aksizli mallar ................................................79
8.2. Aksizlərin hesablanması ..............................................82

9. Dövlət rüsumları ........................................................88
9.1. Dövlət rüsumları nə üçün tutulur?...............................88
9.2. Dövlət rüsumlarının dərəcələri.....................................94
9.3. Gömrük rüsumu ..........................................................95

10. Vergi güzəştləri .........................................................97
10.1. Gəlir vergisinə aid güzəştlər .......................................97
10.2. Mənfəət vergisindən və digər vergilərdən azadolmalar və güzəştlər..........................................................98

11. Vergi nəzarəti.........................................................103
11.1. Vergi qanunvericiliyinin pozulması..........................103
11.2. Vergi yoxlamaları....................................................105

# ƏLAVƏLƏR

Əmanətə xəyanət olmaz *(Azərbaycan xalq nağılı)* ..........110
Abdullah İbn Fadilin nağılı *(Ərəb xalq nağılı, bir parça)*..........115
Vergiyığana hədiyyə *(Koreya xalq nağılı)* ..........117
Vergiyığan və axmaq qardaş *(Abxaz xalq nağılı)* ..........119
Əcinnələr vergi yığanı necə aldatdılar *(Bask xalq nağılı)* ..........121
*Nizami Gəncəvi.* «Yeddi gözəl» poemasından hissələr *(ixtisarla)* ..........123
*Nəsirəddin Tusi.* «Əxlaqi-Nasiri» əsərindən parça ..........125
*M.Ə.Sabir.* Hər nə versən, ver, məbadə vermə bir dirhəm zəkat *(ixtisarla)* ..........127
*Mikayıl Müşfiq.* Şəngül, Şüngül Məngül *(nağıldan bir parça)* ..........128
*Robert Şekli.* Tranay planetinə bilet *(povestdən parça)* ....130
Vergilər haqqında maraqlı əhvalatlar ..........132
Azərbaycan Respublikasının Vergi Məcəlləsi *(parçalar)* ..........137

**Fazil Əsəd oğlu Məmmədov**

**Akif Fərhad oğlu Musayev**

**Aslan Qəhrəman oğlu Qəhrəmanov**

# VERGİLƏR

VI –VIII siniflər üçün dərs vəsaiti
Əlavələr edilmiş üçüncü nəşr

**Redaktor**
E. Ə. Əliyev

**Rəssam**
R. H. Əsədov

**Kompüter səhifələyicisi**
A. E. Əliyeva